EVDƏ QAL, SAĞLAM QAL!

Əli Əhmədov: "Milli şura növbəti dəfə erməni dəyirmanına su tökməklə məşğuldur"



Bax 8

Dövlət Təhlükəsizliyi Xidməti Xarici İşlər Nazirliyində keçirilən əməliyyatla bağlı məlumat yayıb



Bax 9



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 112 (6077) 7 iyul 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


# Koronaviruslu xəstələrin müalicəsi üçün modul tipli hospitalın açılışı olub

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər*





Bax 2

Rusiyanın Azərbaycanın hava məkanından istifadə edərək İrana zərbə endirməsi yalandır



Bax 9

Ağdərənin işğalından 27 il ötür



Bax 12

"Barselona" prezidentindən Messi açıqlaması



Bax 16

# Koronaviruslu xəstələrin müalicəsi üçün modul tipli hospitalın açılışı olub

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər*

***İyulun 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakının Xətai rayonunda Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli hospitalının açılışında iştirak ediblər.***




AZƏRTAC xəbər verir ki, Fövqəladə Hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov dövlətimizin başçısına raport verdi. Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin modul tipli hospitalı 10 korpusdan ibarətdir və burada 800 xəstəni qəbul etmək üçün hər cür imkan var. Modul tipli hospitalda yaradılan şərait müalicə işi ilə yanaşı, laborator müayinələri də qısa müddətə və keyfiyyətlə aparmağa imkan verir. Belə modul tipli xəstəxanaların istifadəyə verilməsi koronavirusa yoluxanların lazımi tibbi xidmətlərlə əhatə olunması üçün vahid idarəetmə və tibbi əlaqələndirmənin təmin edilməsində böyük rol oynayır.

Azərbaycan dövlətinin koronavirus pandemiyasının yayıldığı ilk günlərdən onunla mübarizə istiqamətində atdığı çox mühüm addımlar sırasında modul tipli xəstəxanaların yaradılması böyük əhəmiyyət daşıyır. Prezident İlham Əliyevin müvafiq tapşırıqlarına əsasən, ölkə ərazisində ümumilikdə 10 modul tipli xəstəxana komplekslərinin quraşdırılmasına başlanıldı ki, onlardan da bir neçəsinin artıq açılışı olub. Ümumilikdə, yaradılacaq modul tipli xəstəxana kompleksləri ölkənin səhiyyə sisteminə əlavə 2000 çarpayılıq ehtiyat yaradır.

**“Dünən məşhur bir oteldə baş verən o biabırçı hadisə dözülməzdir. Ona görə, əlbəttə, Azərbaycan polisi düz edərək müdaxilə edib. Polis orqanlarına mənim tərəfimdən çox ciddi göstəriş verilibdir ki, bütün pozuntulara adekvat reaksiya verilməlidir”**




Tibb ocağında yaradılan şəraitlə tanışlıqdan sonra dövlətimizin başçısı Azərbaycan Televiziyasına, İctimai Televiziyaya və “Xəzər” Televiziyasına müsahibə verib.

Prezident İlham Əliyevin müsahibəsi

***-Cənab Prezident, vaxt tapıb suallarımızı cavablandırdığınıza görə təşəkkür edirəm. Birinci sualım bugünkü modul tipli xəstəxana ilə bağlı olacaq. Yaradılan şəraitlə tanış oldunuz. Bununla bağlı təəssüratlarınızı bölüşməyinizi xahiş edirəm.***

- Təəssüratlar çox müsbətdir. Əsas odur ki, bu xəstəxana çox qısa müddət ərzində ərsəyə gəlib və burada 800 xəstənin yerləşməsi nəzərdə tutulur. Nəzərə alsaq ki, COVID xəstələrinin sayı artmaqdadır, bizə əlavə çarpayılar lazımdır və bu istiqamətdə işlər aparılır.

Bu xəstəxanada bütün lazımi şərait yaradılıbdır. Palatalar, laboratoriya, diaqnostika mərkəzi, həkimlər üçün yaxşı şərait vardır. Ən önəmlisi odur ki, bu xəstəxana 800 çarpayılıqdır. Bu ərazidə təqribən bir ay-ay yarım ərzində yeni xəstəxana inşa ediləcək. O da modul tipli xəstəxana olacaq. Orada çarpayıların sayı 1300-ə qədərdir. Yəni, təqribən iki ay ərzində biz 2 mindən çox xəstəni yerləşdirə biləcəyik. Beləliklə, xəstəliklə mübarizədə bizim əlavə imkanlarımız olacaqdır.

***- Cənab Prezident, Sizin də qeyd etdiyiniz kimi, son vaxtlar Azərbaycanda koronavirusla mübarizə ilə əlaqədar modul tipli xəstəxanalar açılır və Siz də növbəti dəfə belə bir tibb ocağının açılışında iştirak etdiniz. Qısa olaraq toxundunuz, amma istərdim, mümkünsə ətraflı məlumat verəsiniz ki, gələcəkdə də əlavə belə tibb ocaqlarının yaradılması, inşası nəzərdə tutulurmu?***

**Ardı Səh. 3**



# Koronaviruslu xəstələrin müalicəsi üçün modul tipli hospitalın açılışı olub

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər*

**Əvvəli Səh. 2**

- Bəli, nəzərdə tutulur. Bildiyiniz kimi, modul tipli 5 xəstəxana artıq fəaliyyətdədir. Bu xəstəxanaların tez bir zamanda inşa edilməsi onu göstərir ki, biz hətta seytnot vəziyyətdə lazımi addımları ata bilərik. Bildiyiniz kimi, heç bir ölkə bu pandemiyaya hazır deyildi. Bizim mövcud çarpayıların sayı adi rejimə hesablanmışdı. Ona görə, modul tipli xəstəxanaların tikintisi zəruri idi və biz bunu etdik. Bildiyiniz kimi, ikisi Bakıda, biri Sumqayıtda, biri Gəncədə, biri Abşeron rayonunda artıq fəaliyyətdədir və beşinin də tikintisi gedir. Hesab edirdik ki, on xəstəxana bizə kifayət edəcək. Ancaq görürük ki, əlavə xəstəxanalara ehtiyac olacaq. Ona görə, mən bu yaxınlarda göstəriş verdim ki, əlavə on modul tipli xəstəxana sifariş olunsun, onların yerləri müəyyən edilsin və biz ən kritik vəziyyətə hazır olmalıyıq. Əslində, modul tipli bu on xəstəxananın tikintisi ilə bağlı qərarı biz o vaxt vermişdik ki, xəstəliyin yayılması o qədər də geniş vüsət almamışdı. Həmin qərar aprel ayında verilmişdi, o vaxt gündə təqribən 30, 40, 50, 60 insan xəstələnirdi. Əlbəttə, qabaqlayıcı tədbirlərin görülməsi zəruri idi. Ancaq biz təxmin edə bilməzdik ki, xəstəlik necə inkişaf edəcək. La-



**“Heç kim qanundan üstün deyil - istər yerli, istər xarici şirkət, istər yerli vətəndaş, istər xarici vətəndaş olsun, fərq etmir, biz xalqımızı qorumalıyıq, biz xalqımızın sağlamlığını qorumalıyıq”**



kin ehtimal var idi və dünyada gedən proseslər onu göstərirdi ki, xəstələrin sayı arta bilər. Belə olan halda biz çıxılmaz vəziyyətdə qalar, bu xəstələri harada yerləşdirərdik? Ona görə o vaxt bu qərarın qəbul edilməsi düzgün addım idi. Bu gün yenə də modul tipli əlavə on xəstəxananın tikilməsi barədə qərar gələcəyə hesablanır.

Ümumiyyətlə hazırda ölkəmizin 45 xəstəxanasında koronavirus xəstələri müalicə alırlar. Onu da bildirməliyəm ki, bu xəstəxanaların 36-sı mənim sərəncamımla son müddət ərzində inşa edilibdir. Təsəvvür etmək çətin deyil ki, əgər bu xəstəxanalar tikilməsəydi, indi biz hansı problemlərlə üzləşə bilərdik. Beləliklə, bu gün bizim hələ ki, kifayət qədər boş çarpayılarımız var. Ancaq biz hər bir vəziyyətə hazır olmalıyıq.

Bildirməliyəm ki, bu il istifadəyə verilmiş “Yeni klinika”da hazırda 350 xəstə müalicə alır. Biz qısa müddət ərzində orada çarpayıların sayını 700-750-yə çatdıracağıq. Ona görə hesablamaq çətin deyil ki, əgər buna ehtiyac yaranarsa, biz qısa müddət ərzində 5 mindən çox xəstəni yerləşdirə biləcəyik - yəni, xəstəxanalarda 2100, modul tipli 15 xəstəxanada 3 min, “Yeni klinika”da əlavə 350.

***-Cənab Prezident, dünyada, o cümlədən ölkəmizdə koronavirus pandemiyası ilə bağlı vəziyyəti qiymətləndirməyinizi istərdik.***

- Bildiyiniz kimi, dünyada koronavirus xəstəliyi daha geniş vüsət alır. Bizim kimi, bəzi ölkələr yumşalma tədbirlərindən sonra gördülər ki, xəstəliyin yayılma tempi geniş vüsət alıbdır. Ona görə indi dünyada bir çox ölkələr yenidən məhdudlaşdırıcı tədbirlərə qayıdırlar. Hesab edirəm ki, bu, düzgün qərardır. Çünki bu gün bu xəstəliyin tam müalicəsi üçün peyvənd mövcud deyil. Belə olan halda yoluxanların sayı bundan sonra da arta bilər.

Bizə gəldikdə, bəri başdan bütün qabaqlayıcı tədbirlərin görülməsi ilə vəziyyəti nəzarətdə saxlaya bildik və bu gün də vəziyyət nəzarət altındadır. Baxmayaraq ki, hazırda gündə təqribən 500 yeni xəstə qeydə alınır, yəni, yoluxmanın tempi yüksəkdir, ancaq vəziyyət nəzarət altındadır. Əlbəttə, biz pandemiyanın ilk günlərindən çox önəmli addımlar atdıq. Fevral ayında bizim cəmi altı laboratoriyamız var idi. Hazırda bu laboratoriyaların sayı 29-a çatıb və 15 yeni laboratoriya sifariş edilib, yoldadır, gələcək və laboratoriyaların sayı 44-ə çatacaqdır. Bu, bizə imkan verəcək ki, daha çox test aparaq. Onu da bildirməliyəm ki, bu günə qədər 500 mindən çox test aparılıb və adambaşına düşən testlərin sayına görə Azərbaycan dünyada təqribən 40-cı yerdədir.

Xəstəxanaların buna hazır olması məsələləri də öz həllini tapıb. Deyə bilərəm ki, bu 45 xəstəxananın əksəriyyəti bölgələrdə yerləşir. Bu xəstəxanalar regional inkişaf proqramı çərçivəsində tikilib və bu gün ən yüksək standartlara cavab verir.

Əlbəttə ki, biz məhdudlaşdırıcı tədbirlərin görülməsi ilə bağlı addımlarımızı vəziyyətə uyğun şəkildə atırıq. May ayının əvvəlində biz birinci yumşalma addımları atanda mən demişdim ki, xəstəliyin yayılma sürətinin artdığını görsək, yenidən sərtləşdirilmiş məhdudlaşdırıcı tədbirlərə qayıtmalı olacağıq, belə də oldu. Bu gün karantin rejiminin qüvvədə qalması hesab edirəm ki, düzgün addımdır. Bildirməliyəm ki, bir çox ölkələr yenə də karantin rejiminin daha da sərt formasına qayıdırlar.




Əlbəttə, hər bir məsələ müqayisə tələb edir və deyə bilərəm ki, bizimlə əhalisi eyni olan bəzi inkişaf etmiş ölkələrdə yoluxanların sayı 60-70 mindir, ölənlərin sayı 10 mindir. O ölkələrin səhiyyə sistemi bir çox hallarda nümunə kimi göstərilirdi. Bu, onu göstərir ki, heç bir ölkə tam şəkildə özünü sığortalanmış hesab edə bilməz və bu xəstəlik sərhəd tanımır. Ona görə beynəlxalq əməkdaşlığa daha böyük ehtiyac var və Azərbaycan bu istiqamətdə lazımi addımları atır.

*Ardı Səh. 4*

# Koronaviruslu xəstələrin müalicəsi üçün modul tipli hospitalın açılışı olub

## *Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər*




Əvvəli Səh. 3

Bu xəstəlik bir şeyi də göstərib - adətən hesab olunurdu ki, belə dəhşətli pandemiyalar, epidemiyalar, insanların yoluxucu xəstəliklərdən kütləvi şəkildə həlak olması ancaq geridə qalmış ölkələrdə mümkündür. Amma həyat onu göstərdi ki, bu, belə deyil. Həyat onu göstərdi ki, bu gün pandemiyadan ən çox əziyyət çəkən ölkələr inkişaf etmiş ölkələrdir. Əgər onlar bu məsələyə tam çarə tapa bilmirlərsə, əlbəttə ki, o qədər də inkişaf etməmiş, yaxud da geridə qalmış ölkələrdə vəziyyəti təsəvvür etmək çətin deyil.

Biz, əlbəttə, bütün addımları atanda vəziyyəti dərindən təhlil edirik. Məhdudlaşdırıcı tədbirlər tətbiq olunanda, əlbəttə ki, mütəxəssislərlə, həkimlərlə məsləhətləşmələr aparılır. Yəni, biz bu işi kortəbii aparmırıq, ölçülüb-biçilmiş addımlar atırıq. Bu addımların əsas məqsədi insanlarımızı, onların sağlamlığını, həyatını bu xəstəlikdən qorumaqdır. Pandemiya dövründə bütün imkanlarımız səfərbər olunmalıdır ki, biz bu vəziyyətdən az itkilərlə çıxa bilək.

***-Cənab Prezident, karantin rejiminə toxundunuz. Bu cür karantin rejiminin nə qədər davam edəcəyini proqnozlaşdırmaq olar? Yəni, hansısa bir səviyyə varmı özümüz üçün onu əsas tutaraq deyə bilək ki, karantin rejimi filan vaxt yekunlaşa bilər.***

-Bilirsiniz ki, biz pandemiya dövründə adətən karantin rejimini bir, ya iki həftə ərzində elan edirdik. Vəziyyəti təhlil edərkən, nəzarət mexanizmlərini gücləndirərkən baxırdıq ki, bu sərtləşdirilmiş tədbirlər nəyə gətirib çıxarır. Deyə bilərəm ki, bir müddət bundan əvvəl yoluxanların sürətlə artan sayı indi sabitləşib. Son bir neçə gün ərzində, dediyim kimi, artıq 500 ətrafında yeni yoluxan insan var. Ancaq biz hələ müsbət dinamikaya çıxmamışıq. Bu günə qədər xəstələnənlərin sayı sağalanların sayından çoxdur və bu mənfi dinamika, qeyd etdiyim kimi, bizim səhiyyə sistemimizə əlavə yükdür. Ona görə indiki rejim nə qədər davam edəcək və bu rejim daha da sərtləşəcək, yoxsa yumşalacaq, yaxın gələcəkdə biz bunu görəcəyik. Yenə də demək istəyirəm ki, ilk gündən bu günə qədər burada dövlət tərəfindən bütün lazımi addımlar atılıbdır. Xəstəliyin yayılmasının başlıca səbəbi bəzi insanların məsuliyyətsizliyidir. Onlar sadə qaydaları gözləmirlər, bunlara əməl etmirlər. Ona görə biz məcbur olub cərimələri artırdıq. Bəzi hallarda karantin rejimini pozanlara qarşı sərt addımlar atmağa məcbur oluruq. Ancaq onlar da öz məsuliyyətini dərk etməlidirlər. Bütün qaydalar insanların, o cümlədən karantin rejimini pozanların sağlamlığının qorunmasına hesablanıb. Amma biz görürük ki, insanlar bu rejimi nümayişkaranə pozurlar. Dünən məşhur bir oteldə baş verən o biabırçı hadisə dözülməzdir. Ona görə, əlbəttə, Azərbaycan polisi düz edərək müdaxilə edib. Polis orqanlarına mənim tərəfimdən çox ciddi göstəriş verilibdir ki, bütün pozuntulara adekvat reaksiya verilməlidir. Heç kim qanundan üstün deyil - istər yerli, istər xarici şirkət, istər yerli vətəndaş, istər xarici vətəndaş olsun, fərq etmir, biz xalqımızı qorumalıyıq, biz xalqımızın sağlamlığını qorumalıyıq. Eyni zamanda, mövcud qanunlar və karantin rejimi ilə bağlı tətbiq edilən qaydalar hər kəs üçün əsas olmalıdır. Ona görə biz bundan sonra da bu istiqamətdə addımlarımızı atacağıq. Əgər o qaydaları pozan insanlar daha məsuliyyətli olarlarsa və nizam-intizama riayət edərlərsə, hesab edirəm ki, biz pandemiyanı nəzarətdə saxlaya biləcəyik.

**“Hesab edirəm ki, bu gün neftin qiymətinin düşməsinə sevinən bir Ermənistandır, bir də özünü müxalifət adlandıran antimilli şura. Çünki hər ikisi Azərbaycan dövlətçiliyinə düşmənçilik hissləri ilə yaşayır. Bunu Azərbaycan xalqı bilməlidir. Amma mən demişəm, neftin qiyməti hətta 14 dollar da olsa, biz ayaqda duracağıq”**



***-Cənab Prezident, pandemiya başladığı gündən bəri Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatı ilə sıx əməkdaşlıq edir. Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanı koronavirusla mübarizədə nümunəvi ölkə adlandırıb. İstərdim ki, bu təşkilatla əlaqələrimizi və əməkdaşlığımızı qiymətləndirəsiniz.***

-Biz ilk gündən Ümumdünya Səhiyyə Təşkilatı ilə təmasda idik. Çünki bu təşkilat dünya miqyasında bu işlərə cavabdehlik daşıyan birinci təşkilatdır. Onların mütəxəssislərini dəvət etdik. Onlar da ezam olundu, gəldilər, bəzi məsləhətlər verdilər və o məsləhətlər əsasında öz addımlarımızın bir hissəsini atdıq. Dediyiniz kimi, Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanda görülmüş işlərə yüksək qiymət vermişdir, həm birinci mərhələdə, ondan sonrakı mərhələdə və bu gün. Bu gün də biz sıx əlaqədəyik və hesab edirəm ki, bu təşkilatla hər bir ölkə çox sıx əməkdaşlıq etməlidir. Çünki biz yalnız Ümumdünya Səhiyyə Təşkilatından məsləhət ala bilərik. Ona görə biz bu təşkilatı beynəlxalq arenada da dəstəkləyirik, bildiyiniz kimi, ona maliyyə yardımı da etmişik. Bu gün təşkilatın nümayəndəliyi Azərbaycanda çox fəal iş aparır və bu xəstəliyin yayılmaması üçün əməli addımlar atır. Biz bu fəaliyyətə görə minnətdarıq. Bildiyiniz kimi, Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Azərbaycan tərəfindən təşkil olunmuş Zirvə görüşlərində də iştirak edib.

Ardı Səh. 5

# Koronaviruslu xəstələrin müalicəsi üçün modul tipli hospitalın açılışı olub

## *Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər*

**Əvvəli Səh. 4**

Hesab edirəm ki, pandemiyadan sonra da biz bu təşkilatla əməkdaşlığımızı uğurla davam etdirəcəyik.

***-Cənab Prezident, koronavirus pandemiyasının ölkəmizin sosial-iqtisadi sahələrinə təsiri necədir? Bu barədə fikirlərinizi öyrənmək istərdik.***

-Əlbəttə, bu pandemiya təsirsiz ötüşmədi. Dünyanın aparıcı maliyyə qurumları indi ortaya müxtəlif proqnozlar qoyurlar - dünya iqtisadiyyatı nə qədər tənəzzülə uğrayacaq, avrozonada vəziyyət necə olacaq, işsizliklə bağlı vəziyyət necə olacaq? Biz görürük ki, işsizlik az olan ölkələrdə işsizlik kəskin artır. Dünya iqtisadiyyatına böyük zərbə vuruldu və Azərbaycan da dünya iqtisadiyyatının bir parçası olduğu üçün təbii ki, bu, bizim vəziyyətimizə də mənfi təsir göstərmişdir.

Biz bu ili çox böyük ümidlərlə, böyük planlarla başlamışdıq. İlin ilk aylarında iqtisadi göstəricilərimiz kifayət qədər yüksək idi. Biz hesab edirdik ki, 2020-ci il son vaxtlar apardığımız islahatların nəticəsində gözəl nəticələri verə biləcək il olacaqdır. Ancaq əlbəttə ki, pandemiya bizim bütün planlarımıza da müdaxilə etdi və biz şüurlu şəkildə çox sərt məhdudlaşdırıcı addımlar atdıq, o cümlədən ticarət sahəsində, digər sahələrdə. Təxmin edirdik ki, iqtisadiyyatımız tənəzzülə uğrayacaq. Azərbaycan iqtisadiyyatı beş ayın yekunlarına görə 1,7 faiz tənəzzülə uğradı. Altı ayın yekunları yəqin ki, bir neçə gündən sonra məlum olacaq. Amma bilirsiniz, bu, bərpa ediləcək. Ona görə mən bir daha demək istəyirəm ki, seçim qarşısında olanda bizim seçimimiz birmənalı, tərəddüdsüz idi, insanların sağlamlığı ön plandadır, iqtisadiyyat ikinci plandadır. Amma buna baxmayaraq, biz heç bir sosial layihəni təxirə salmadıq, ixtisar etmədik. Əksinə, bu il büdcə xətti ilə reallaşan sosial layihələr keçən ilə nisbətdə daha təsirlidir. Misal üçün, ən həssas təbəqəyə aid olan layihələr bu il daha böyük həcmdə icra edilir. Məsələn, bu il məcburi köçkünlər üçün rekord sayda binalar tikiləcək, 7 mindən çox köçkün ailəsi yeni mənzillərlə təmin ediləcəkdir. Şəhid ailələri üçün bu il rekord sayda - 1500 mənzil istifadəyə veriləcək, adətən ildə təqribən 700-800 mənzil təqdim edilir. İyirmi il orduda qüsursuz xidmət etmiş hərbçilərə bu il 400-dən çox mənzilin verilməsi nəzərdə tutulur. Biz ünvanlı sosial yardım alanların sayını artırdıq. Bu rəqəm təqribən 85 minə yaxınlaşır - 85 min ailə, yəni, 300 mindən çox insan. Digər önəmli sosial layihələr icra edildi. Bildiyiniz kimi, işsizləri, o cümlədən qeyri-formal sahədə işləyənləri dəstəkləmək, pandemiyadan zərər çəkmiş sahələrdə çalışan insanlara maddi yardım göstərmək və digər məqsədlər üçün təqribən 3 milyard manat vəsait nəzərdə tutulur və o vəsaitin bir hissəsi artıq xərclənib.



Ona görə biz nə qədər vəsait lazımdırsa, o qədər də ayıracağıq. Digər tərəfdən, baxmayaraq ki, iqtisadiyyatımız tənəzzülə uğrayıb, amma bəzi sahələrdə inkişaf da var. Misal üçün, kənd təsərrüfatı. Biz beş ayın yekunlarına görə bu sahədə 3 faizdən çox artım gördük. Kənd təsərrüfatı sahəsində aparılan islahatlar və şəffaflıq bu gün çox yaxşı nəticələrə gətirib çıxarır. Qeyri-neft sənayesi sahəsində artım beş ay ərzində 16 faiz olub. Bu da son illər ərzində sənayeləşmə prosesinin təzahürüdür. Ona görə mən hesab edirəm ki, biz bütövlükdə bu ili də lazımi səviyyədə başa vuracağıq. Dünya bazarlarında neftin qiymətinin kəskin düşməsinə baxmayaraq, altı ay ərzində bizim valyuta ehtiyatlarımız cəmi 98 milyon dollar azalıbdır. Biz daha da böyük düşmə, tənəzzül gözləyirdik. Əgər bizim büdcəmizdə neftin qiyməti 55 dollar hesablanıbsa, altı ay ərzində neftin orta qiyməti 38 dollar olub. Yəni, bu, bizim üçün böyük itkidir. Bəzi günlərdə daha aşağı düşürdü. Hətta bildiyiniz kimi, özünü müxalifət adlandıran bəzi nümayəndələr bir-birini təbrik edirdilər, toy-bayram edirdilər ki, neftin qiyməti 14 dollara düşüb və beləliklə, ölkə böyük problemlərlə üzləşəcək. Bilirsiniz, Azərbaycan xalqı bu iyrənc mənzərəni görərkən bir daha əmin olur ki, kim kimdir. Çünki neftin qiymətinin düşməsi, ilk növbədə, insanların sosial məsələlərinin həllində özünü göstərəcək. Əgər neftin qiyməti uzun müddət aşağı səviyyədə olarsa, biz istər-istəməz investisiya xərclərimizi azaltmalı olacağıq. Belə olan halda işsizlik artacaq. Biz məcbur olub sosial xərcləri ixtisar edəcəyik və insanlar bundan əziyyət çəkəcəklər. Hesab edirəm ki, bu gün neftin qiymətinin düşməsinə sevinən bir Ermənistandır, bir də özünü müxalifət adlandıran antimilli şura. Çünki hər ikisi Azərbaycan dövlətçiliyinə düşmənçilik hissləri ilə yaşayır. Bunu Azərbaycan xalqı bilməlidir. Amma mən demişəm, neftin qiyməti hətta 14 dollar da olsa, biz ayaqda duracağıq. Çünki biz son illər ərzində o qədər böyük iqtisadi-maliyyə potensialı yaratmışıq ki, istənilən böhranla bacara biləcəyik.

İqtisadi sahədə bir məsələyə də toxunmaq istəyirəm. Bildiyiniz kimi, hazırda kölgə iqtisadiyyatına qarşı çox ciddi mübarizə aparılır və bu mübarizə özünü göstərir. Həm biznes cəmiyyəti bunu görür və qiymətləndirir, eyni zamanda, biznes qurumlarında fəaliyyət göstərən vətəndaşlar. Bu il yüz mindən çox əmək müqaviləsi imzalanıb. Əslində bu, qeyri-formal məşğulluğun ağardılması deməkdir. Çünki bu günədək yüz minə qədər insan kölgə iqtisadiyyatında fəaliyyət göstərirdi, öz əməkhaqqı barədə məlumat vermirdi. Beləliklə, özünü gələcək pensiya təminatından, gələcək tibbi sığortadan məhrum edirdi. Odur ki, həm maarifləndirmə işləri, həm də çox ciddi inzibati addımlar və dövlət qurumları ilə biznes qurumları arasındakı təmaslar, onlar üçün güzəştli vaxtın uzadılması ona gətirib çıxardı ki, yüz mindən çox əmək müqaviləsi imzalandı və bu, son hədəf deyil. Bizdə qeyri-formal sahədə bəlkə də hələ yüz minlərlə insan işləyir və əminəm ki, onlar da tədricən kölgə iqtisadiyyatından ağ iqtisadiyyata keçəcəklər. Bu islahatlar, eyni zamanda, büdcə gəlirlərində də özünü göstərdi. Baxın, ticarət və ictimai iaşə obyektlərinin böyük əksəriyyəti bu müddət ərzində bağlı idi. Turizm sıfır səviyyəsindədir. Halbuki biz hesab edirdik ki, bu il ölkəyə təqribən 3,5 milyon turist gələcək. Çünki keçən il 3 milyon rekord hədd idi. Bu il üçün belə planlaşdırırdıq. Bu da ölkə iqtisadiyyatına minimum 2 milyard dollar valyutanın gəlməsi demək idi. Biz bundan da məhrum olduq. Ancaq altı ay ərzində vergi və gömrük orqanları büdcəyə proqnozdan əlavə 423 milyon manat cəlb edə biliblər. Bunun 98 milyon manatını gömrük, qalan böyük hissəsini vergi orqanları təmin edib. Nəyin hesabına? Məhz şəffaflığın, dürüstlüyün hesabına, kölgə iqtisadiyyatının daralmasının hesabına. Yəni, biz bu islahatları ən böhranlı məqamda da aparırıq və gözəl nəticələr əldə edirik. Əlbəttə ki, mən demişəm, bu vəsaitin hamısı ancaq sosial layihələrə, o cümlədən COVID-ə qarşı mübarizəyə xərclənəcəkdir.

***-Cənab Prezident, Azərbaycan pandemiya ilə mübarizədə bir çox ölkələrə humanitar yardım göstərib. Bununla bağlı fikirlərinizi bölüşməyinizi xahiş edirik.***

- Bəli, tamamilə haqlısınız. Biz bu günə qədər 30-dan çox ölkəyə humanitar və maliyyə yardımı göstərmişik. Onu deyə bilərəm ki, biz bu haqda heç məlumat da vermirdik. Çünki biz bunu piar üçün yox, sadəcə olaraq, ölkələrə həmrəylik borcu kimi edirdik. Ancaq bir neçə dövlət başçısı mənə təşəkkür məktubu ünvanladıqdan sonra bu, artıq bilindi və biz də əlbəttə ki, bunu gizlətmirik. Əksinə, hesab edirəm ki, bu, bizim böyük üstünlüyümüzdür. Çünki hətta çətin bir dövrdə biz 30-dan çox ölkəyə yardım göstərmişik və düz etmişik. Əlbəttə, məhz çətin günlərdə ölkələr bir-birinə dəstək verməlidirlər. Yaxşı günlərdə hər kəs yaxşı sözlər deyə bilər, yaxşı bəyanatlar verə bilər. Ancaq biz bu həmrəyliyi sözdə yox, əməldə göstərməliyik və bunu göstərmişik. Hesab edirəm ki, buna görə ölkəmizin beynəlxalq mövqeləri daha da möhkəmlənib. Onsuz da Azərbaycan dünyada çox yüksək imicə malik bir ölkədir. Son hadisələr bunu bir daha təsdiqlədi. Bu humanitar və maliyyə yardımı bir daha onu göstərir ki, ilk növbədə, Azərbaycan ayaqda möhkəm duran ölkədir və çətin dövrdə özünə qapanmır. Əksinə, bu dövr ərzində bizim təşəbbüslərimiz, o cümlədən beynəlxalq müstəvidə təşəbbüslərimiz beynəlxalq əməkdaşlığı təşviq edən təşəbbüslərdir. Burada Azərbaycan dünya miqyasında çox önəmli rol oynayan ölkə kimi özünü bir daha təsdiqləyib.

İkincisi, bizim fəlsəfəmiz belədir. Mən əminəm ki, əgər kimsə yardım üçün müraciət edirsə, imkan daxilində o xahişlər təmin olunmalıdır. Çünki biz ancaq əməkdaşlıq, xeyirxahlıq, yardım və dəstək hesabına daha çox dost qazana bilərik. Biz bunu ardıcıllıqla, düşünülmüş siyasətlə etmişik. Biz heç vaxt hansısa bir ölkənin çətin vəziyyətindən istifadə edib özümüz üçün nəyisə qoparmağa çalışmamışıq. Həmişə kömək etməyə çalışmışıq. İndi kim bunun qədrini bilir, sağ olsun, kim bunu unudur, özü bilər. Hər halda bizim vicdanımız təmizdir. Bu dövrdə biz, əlbəttə, bundan sonra da yardımları göstərə bilərik və edəcəyik. O cümlədən biz Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar ianə verdik. Birinci ianə sırf onların öz planlarını həyata keçirməsi üçün idi. İkinci ianə isə pandemiyadan ən çox əziyyət çəkən və ən ağır vəziyyətdə olan Qoşulmama Hərəkatına üzv ölkələrə nəzərdə tutulur. Biz digər beynəlxalq təşkilatlara maliyyə yardımı göstərmişik. Yenə də deyirəm, hesab edirəm ki, tamamilə düzgün addım atmışıq.

***-Cənab Prezident, belə bir dövrdə şəxsən Siz beynəlxalq arenada bir sıra təşəbbüslər irəli sürmüsünüz. Biz buna misal olaraq Türk Şurasının və Qoşulmama Hərəkatının Zirvə toplantılarını göstərə bilərik. Necə düşünürsünüz, bu təşəbbüsləri Azərbaycanın beynəlxalq nüfuzunun göstəricisi kimi dəyərləndirmək olarmı?***

**Ardı Səh. 6**

# Koronaviruslu xəstələrin müalicəsi üçün modul tipli hospitalın açılışı olub

## *Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər*

Əvvəli Səh. 5

-Təbii ki. Bilirsiniz, mən hesab edirəm ki, hər bir ölkə, - hər halda biz Azərbaycanın mövqeyini bunda görürük, - hər hansı bir təşkilatda fəaliyyəti tam icra etməlidir. Yəni, bu fəaliyyət, xüsusilə sədrlik fəaliyyəti formal xarakter daşımamalıdır, halbuki daşıya da bilər. Çünki Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrlik növbəlilik prinsip əsasındadır. Qoşulmama Hərəkatında sədrlik isə seçkilər yolu ilədir. Biz hər iki təşkilata sədrliyi təxminən eyni vaxtda - keçən ilin oktyabrında öz üzərimizə götürmüşük. Bakıda iki Zirvə görüşü keçirilmişdir. O vaxt mən bəyan etdim ki, biz sədr kimi fəal olacağıq, Qoşulmama Hərəkatına üzv ölkələrin maraqlarını dünya miqyasında müdafiə edəcəyik, ədaləti və beynəlxalq hüququ müdafiə edəcəyik. Ona görə bu ağır bir dövrdə, əlbəttə, hesab etdim ki, Zirvə görüşlərinin keçirilməsinə də böyük ehtiyac var. Bildirməliyəm ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə görüşü yeni formatda - onlayn formatda ilk Zirvə görüşü idi. Ondan sonra digər təşkilatlar da buna oxşar addımlar atdılar. Qoşulmama Hərəkatına üzv ölkələrin və Türk Şurasının Zirvə görüşləri çox uğurlu keçdi. Qəbul edilmiş sənədlərdə Azərbaycanın bu təşəbbüsü və bu sahədə oynadığı rolu, həmrəyliyə hesablanmış addımları yüksək qiymət almışdır.

Bundan başqa, mən Avropa İttifaqının Şərq Tərəfdaşlığı Zirvə görüşündə iştirak etmişəm və Azərbaycanın mövqeyini ifadə etmişəm. Eyni zamanda, bu yaxınlarda Azərbaycan, Əfqanıstan, Türkmənistan dövlət başçılarının Zirvə görüşü keçirildi və bu görüş də çox önəmli idi. Biz konkret nəticələrə gəldik. Bu Zirvə görüşü daha çox logistika, nəqliyyat sektoruna aid idi. Ancaq mənim təşəbbüsümlə biz onun formatını bir qədər genişləndirdik. Yenə də təşəbbüs göstərərək hökumətlərarası işçi qruplarının yaradılmasına nail olduq. İndi məsləhətləşmələr gedir. İnvestisiyalar, ticarət, nəqliyyat-logistika, energetika, telekommunikasiya. Burada çox önəmli üçtərəfli format artıq formalaşıb. Deyə bilərəm ki, üçtərəfli əməkdaşlıq formatına biz həmişə çox böyük maraqla yanaşmışıq, üstünlük vermişik. Bir neçə ölkə ilə belə formatlar var. Bu isə üçtərəfli və çox böyük iqtisadi səmərə gətirə biləcək yeni bir formatdır. Əlbəttə ki, bizim növbəti təşəbbüsümüz BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi ilə əlaqədar idi. Bu təşəbbüs də dünya miqyasında yüksək qiymət aldı və 130-dan çox ölkə bizim təşəbbüsümüzə dəstək verdi. Beləliklə, yaxın gələcəkdə sessiya keçiriləcəkdir.

***-Cənab Prezident, Sizin BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi təşəbbüsünüzün əleyhinə səs verən yeganə ölkə Ermənistan idi. Bunu nə ilə əlaqələndirirsiniz? Bu, Ermənistanın bizə qarşı olan nifrətidir, yoxsa özünü dünyadan təcrid etməsidir?***

-Yəqin ki, hər ikisidir. Hesab edirəm ki, bunun əsas səbəbi Ermənistanda hökm sürən və dövlət tərəfindən təbliğ edilən Azərbaycanafobiyadır, Azərbaycan dövlətinə, Azərbaycan xalqına nifrətin təzahürüdür. Ancaq Ermənistan özü-özünü çox pis vəziyyətə qoydu. Siz qeyd etdiyiniz kimi, özünü dünyadan təcrid etdi. Çünki bu təşəbbüsün əleyhinə çıxmaq ağılsızlıqdır və qeyri-rasional düşüncənin məhsuludur. Çünki biz bu təşəbbüsü irəli sürəndə bir məqsədi güdürdük ki, artıq dünya miqyasında səylərimizi birləşdirək. Bu təşəbbüslə əlaqədar bizim konkret təkliflərimiz də olacaqdır. Çünki türk dünyasında biz bunu keçirdik, 120 ölkəni əhatə edən Qoşulmama Hərəkatı çərçivəsində keçirdik. İndi biz dünya miqyasında bunu keçirmək istəyirik ki, burada vahid bir yanaşma tətbiq olunsun, ölkələr özlərinə qapanmasın, inkişaf etmiş ölkələr ağır vəziyyətdə olan ölkələrə kömək göstərsinlər. Biz bunu görmürük. İndi biz görürük kim kimə kömək göstərir. Peyvənd icad olunandan sonra bu peyvəndi pulla ala bilməyən ölkələrə bu, pulsuz verilsin. Burada donor təşkilatlar, iri biznes qurumları öz sözünü desin. Yəni, biz bu təklifləri buna görə, həm də həmrəyliyi nümayiş etdirmək üçün veririk. Hələ bilinmir ki, peyvənd icad olunandan sonra nələr baş verəcək? İndi dərmanlar, cihazlar uğrunda mübarizə gedir. Biz özümüz bu vəziyyətlə üzləşmişdik. Biz sifariş edilmiş və pulla alınmış bəzi cihazları ölkəmizə gətirə bilməmişik. Çünki imkan verməndilər. Ona görə peyvənd icad ediləndən sonra hansı vəziyyət olacaq? Bunu heç kim bilmir. Birincisi, bu peyvənd nə dərəcədə səmərəli olacaq? İndi testdən keçir. Sonra kasıb ölkələrin ona əli çatacaq, yoxsa yox? O, pullamı satılacaq, yaxud da ki, Ümumdünya Səhiyyə Təşkilatı onu paylayacaq? Yoxsa ki, zəngin ölkələr bundan istifadə edib öz əhalisinin canını qurtaracaq, amma kasıb ölkələrdəki insanlar öləcək? Bu, dözülməzdir. Bütün bu məsələlər vahid bir yanaşma tələb edir. Hətta ölkələr BMT Baş Assambleyasında da vahid bir fikrə gəlməsələr belə, biz bu məsələni qaldırmalıyıq. Biz dünya birliyinin məsuliyyətli ölkəsi kimi bu məsələni qaldırırıq. Ona görə Ermənistanın bu addımı qətiyyən başadüşülən deyil.

Bildiyiniz kimi, bu təşəbbüsün reallaşması üçün bizə 97 səs lazım idi. Biz isə 130-dan çox ölkənin səsini qazandıq. Hesab edirəm ki, burada iki əsas amil öz rolunu göstərdi - bu mövzunun aktuallığı və beynəlxalq müstəvidə Azərbaycana olan dəstək və rəğbət. Biz bu rəğbəti uzun illər ardıcıl fəaliyyət hesabına, prinsipial, müstəqil siyasətimiz sayəsində qazanmışıq.

Mən dəfələrlə demişəm ki, biz müstəqil siyasət aparırıq və bizim siyasətimizə heç bir kənar qüvvə təsir edə bilməz. Müxtəlif məqamlarda bunu dəfələrlə nümayiş etdirmişik. Ona görə bu gün Azərbaycana olan rəğbət doğrudan da ən yüksək səviyyədədir. Biz doqquz il bundan əvvəl 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına üzv seçilmişik. Bildirməliyəm ki, o vaxt bizdən əvvəl Ermənistan namizədliyini vermişdi. Ancaq görəndə ki, biz namizədliyimizi verdik, bizim qarşımızda aciz olduqlarını başa düşdülər və namizədliklərini sakitcə geri götürdülər - yəni, o diplomatik döyüş arenasından qaçdılar. Ondan beş il sonra döyüş meydanından qaçdılar və beləliklə, Azərbaycan işğal edilmiş torpaqların bir hissəsini işğalçılardan azad etdi. Ona görə bu, 10 ildən sonra yenidən bizə verilən böyük beynəlxalq dəstəkdir. Mən öz ölkəmizi heç kimlə müqayisə etmək istəmirəm. Amma hesab etmirəm ki, bir çox ölkələr BMT-də bu qədər dəstək qazana bilər. Bu, yenə də bizim dürüstlüyümüzün, sözümüzə əməl etməyimizin nəticəsidir. Mən dəfələrlə demişəm, bizim sözümüz imzamız qədər təsirlidir və bunun təsiri eynidir. Biz sözümüzü tutan ölkəyik.

O ki qaldı, Ermənistana, əslində, onlar özlərini çox gülünc vəziyyətə qoydular. Bizim təşəbbüsümüzü 130-dan çox ölkə rəsmən dəstəklədi, özü də fərdi qaydada. Baxmayaraq ki, Qoşulmama Hərəkatı bütövlükdə buna dəstək vermişdi, yenə də bütün ölkələr fərdi qaydada ya bizə, ya da ki, BMT-yə məktublarla bu haqda məlumat verdilər. Bir neçə ölkə səssiz qaldı. Yəni, onlar, sadəcə olaraq, buna reaksiya vermədilər. Yeganə ölkə - Ermənistan bunun əleyhinə çıxıb. Ermənistanın BMT-dəki səfiri çox qəribə bir məktub ünvanlamışdır ki, onlar bunun əleyhinədirlər.

Birincisi, Ermənistanın özü regionda və bəlkə də dünyada pandemiyadan ən çox zərər çəkmiş ölkələrdən biridir. İndi özləri etiraf edirlər ki, bu pandemiya ilə bacarmırlar. İndi özləri döymədikləri qapı qalmayıb ki, onlara yardım etsinlər. Yenə də dilənə-dilənə, yalvara-yalvara, oradan-buradan hansısa yardım hesabına yaşamağa çalışırlar. Belə olan halda onlar özləri maraqlı olmalıdır. İkincisi, bu, bir daha onların ksenofob, irqçi və faşist mahiyyətini göstərir. Çünki artıq dünya bunların əsl simasını dəfələrlə görübdür. Bu gün Ermənistanda faşizm ideologiyası üstünlük təşkil edir. Mən demişəm, rejim dəyişə bilər, amma bu ölkənin faşist ideologiyası dəyişməz olaraq qalır. Bu ideologiyanın hədəfində bizik. Onların Azərbaycanafob siyasəti bu gün də özünü büruzə verdi. Onlar özləri-özlərini dünyadan təcrid edirlər. Amma bu addım, əlbəttə ki, heç bir məsələyə təsir edə bilməz. Sadəcə olaraq, dünya ictimaiyyəti bir daha Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə öz diqqətini artıracaq, görəcək ki, məhz buna görə bu addım atıldı, buna görə Ermənistan etiraz etdi və yenidən təcrid edilmiş vəziyyətdə qaldı.

***-Cənab Prezident, Siz Ermənistanın beynəlxalq təşkilatlarda addımlarından danışdınız. Ancaq bu ölkənin daxilində də demokratiyanın, insan haqlarının pozulması halları geniş vüsət alır. Avropa təşkilatları isə bütün bunlara göz yumur. Sizcə, bu, nə ilə əlaqədardır?***

- Hesab edirəm ki, bunun əsas səbəbi erməni lobbisi və onun maliyyə vəsaitidir. Erməni lobbisi Ermənistanı bütün təşkilatlarda müdafiə edir. Mən bunu şəxsən Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin başçısı kimi görmüşəm. Yəni, Ermənistan tamamilə tənqiddən kənarda idi. O vaxt ermənipərəst deputatlar və əslən Avropa ölkələrindən olan varlı ermənilər bütün imkanlardan, öz maliyyə imkanlarından istifadə edib Ermənistanı bütün tənqidlərdən qoruyurdular. Ermənistanda insan haqlarının və demokratiyanın pozulması bu günün işi deyil. Ermənistanda heç vaxt demokratiya olmayıb. Ermənistan hələ müstəqil ölkə kimi formalaşandan dərhal sonra öz əsl xislətini göstərdi. Xocalı soyqırımını törədən faşistlər demokrat ola bilməzlər. Başqasının torpağına göz dikən, bir milyon insanı evsiz-eşiksiz qoyan ölkə demokrat ola bilməz. Onlar bir milyon Azərbaycan vətəndaşının və Ermənistanda yaşayan azərbaycanlıların elementar insan haqlarını pozublar. Ancaq ermənilərə himayədarlıq edənlər, ilk növbədə, erməni lobbisi, onun pulları, ondan sonra Ermənistan hökumətinin Avropada çirkin lobbiçilik fəaliyyəti onları həmişə bu tənqiddən qoruyurdu. Əslində, bu, lobbiçilik fəaliyyəti deyil, bu, korrupsiya fəaliyyətidir. Mən hesab edirəm ki, bu fəaliyyət Avropada geniş araşdırılmalıdır. Bizdə kifayət qədər siqnallar var ki, bəzi siyasi xadimlər, deputatlar, bəzi Avropa ölkələrinin hökumət üzvləri Ermənistana xüsusi münasibət bəsləyirlər. Elə adamlar var ki, Dağlıq Qarabağa yüzlərlə səfər edib. Bunun arxasında nələr dayanır, hamımız yaxşı başa düşürük. Ona görə Avropanın hüquq-mühafizə orqanları bu məsələni, Ermənistan hökumətinin Avropada korrupsiyanın yayılmasına verdiyi dırnaqarası töhfəni, əlbəttə ki, Ermənistanın riyakar siyasətini araşdırsınlar. Çünki o, hər bir güc mərkəzinə o güc mərkəzinin eşitmək istədiyini deyir yalandan. O, bir neçə stulda oturmaq istəyir. Bu günə qədər buna müvəffəq olub. O, saxta tarixi, uydurulmuş, yüz il bundan əvvəl dırnaqarası hadisələri - soyqırımı istismar etmək istəyir. Özündən qurban, yazıq bir xalq düzəltmək istəyir. Halbuki hər kəs yaxşı bilir ki, ermənilər bizə qarşı soyqırımı törətmişlər. Budur, əsas amillər.

Ancaq Azərbaycanın məqsədyönlü fəaliyyəti ona gətirib çıxarıb ki, Ermənistanın üzərində mövcud olan çətir artıq deşilibdir. Biz onların əsl mahiyyətini üzə çıxarırıq, onların faşist mahiyyətini ifşa edirik. Faşist Njdeyə abidə ucaldan və bu abidəni müdafiə edən faşistdir. Bunu biz deyirik və artıq dünya miqyasında bu fakt haqqında kifayət qədər məlumat var. Mən bu məsələni qaldırmayana qədər heç kim bu haqda danışmırdı. Mən bu məsələni qaldırdım və buna geniş beynəlxalq dəstək təmin edildi. İndi artıq hər kəs bilir ki, Njde faşist olubdur. Bu faşist onların qəhrəmanlıq simvoludur. Onların işğalçılıq siyasəti ifşa edilib. Artıq son vaxtlar bütün aparıcı beynəlxalq təşkilatların sənədlərində Azərbaycanın ərazi bütövlüyü birmənalı şəkildə dəstəklənir və işğal haqqında kifayət qədər dolğun məlumat var. Bir də ki, indiki Ermənistan rəhbərliyi əvvəlki hakimiyyətin bütün çirkin əməllərini üzə çıxarır. Artıq onların dediyi kimi, Ermənistana 1998-ci ildən 2018-ci ilə qədər quldurlar rəhbərlik ediblər. Onlar özləri bu cinayətkarları, rüşvətxorları ifşa ediblər.

Mən demişəm ki, əgər 20 il ərzində bir ölkəyə rüşvətxorlar, cinayətkarlar, oğrular rəhbərlik edibsə, bu ölkə cinayətkarlar, oğrular, rüşvətxorlar ölkəsidir. Başqa cür ola bilməz. Onların dırnaqarası müstəqillik tarixi rüsvayçılıq tarixidir. Müstəqilliyin ilk illərində Azərbaycan xalqına qarşı törədilmiş ərazi iddiası, Xocalı soyqırımı, işğal və Azərbaycan vətəndaşlarının öz doğma torpaqlarından didərgin salınması, ondan sonrakı mərhələdə qanunsuz yollarla hakimiyyətin zəbt edilməsi. Bütün Ermənistan rəhbərləri hakimiyyətə qanunsuz yollarla gəliblər. Bu ölkənin, sadəcə olaraq, tarixinə baxmaq kifayətdir. 1990-cı illərin sonlarında Ermənistan parlamentində terror hadisəsi onların əsl mahiyyətini üzə çıxarır.

Ardı Səh. 7

# Koronaviruslu xəstələrin müalicəsi üçün modul tipli hospitalın açılışı olub

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər*

**Əvvəli Səh. 6**

Bu, terrorçu ölkədir və 2018-ci ilə qədər quldur, kriminal, rüşvətxor xuntanın hakimiyyəti Ermənistanı bu acınacaqlı vəziyyətə gətirib çıxardı. Belə çıxır ki, Ermənistan prezidentləri rüşvətxor olublar və ikisi də indi cinayət məsuliyyətinə cəlb edilib. Onların generalları oğru olublar, əsgərlərin tuşonkasını bazarlarda satdırıblar. Onların qəhrəmanları faşist, terrorçu və cinayətkar olublar. Bax, budur, bugünkü Ermənistan. İndi baxın görün son iki il ərzində nələr baş verir. Belə olan halda mənzərə tam üzə çıxacaq. Son iki il ərzində Ermənistanda diktatura rejimi formalaşıb. Xunta getdi, diktatura gəldi. Ermənistanda insan haqları kobudcasına pozulur, jurnalistlər həbs olunur. Bir jurnalist həbsxanada aclıq elan etmiş və aclıqdan vəfat etmişdir. Ermənistanda konstitusiya kobudcasına pozulur və konstitusiyaya qanunsuz dəyişikliklər edilir. Halbuki bu dəyişikliklər ancaq referendumla edilə bilərdi. Siyasi opponentlər təqib edilir, siyasi partiya rəhbərlərinin deputat toxunulmazlığı götürülür, onlar hədələnir, onların qohumlarına qarşı cinayət işləri açılır, hakimiyyət zəbt edilib, hakimiyyət bölgüsü tamamilə mövcud deyil. Baş nazir həm hakimdir, həm prokurordur, həm icra orqanının rəhbəridir, həm də sanki parlamentin sədridir. Qanunvericilik, məhkəmə-hüquq və idarəetmə mexanizmi bir adamın əlində cəmlənib və Ermənistanda diktatura artıq formalaşıbdır.

Ancaq baxın, beynəlxalq təşkilatlar, - indi bunu bir çox adamlar deyir, - buna nə reaksiya verir? Heç bir reaksiya vermir. Haradadır ATƏT-in media üzrə nümayəndəsi? Hansı ki, gecə-gündüz Azərbaycan haqqında iftiralar uydurur və indi dəridən-qabıqdan çıxır ki, öz vəzifəsində qala bilsin. Niyə səsini çıxarmır? Niyə həbsxanada jurnalist öləndə səsini çıxarmayıb? Niyə pozuntular olanda səsini çıxarmayıb? Haradadır Avropa Şurası? Niyə Ermənistan tənqid olunmur? Niyə Ermənistan üzrə, siyasi məhbus üzrə məruzəçi təyin edilmir? Mən bütün bu sualları verirəm və bu suallar cavabsız qalır, bu suallara cavab verilmir. Çünki sərf etmir. Nə cavab verəcəklər? Cavab verəcəklər ki, biz saxtakarıq? Deməyəcəklər. Sadəcə olaraq, susmağa üstünlük verirlər.

Avropa qurumlarının saxtakarlığını biz Ermənistanda keçirilmiş bütün seçkilərdə görmüşük. Bütün seçkilər saxtalaşdırılıb, amma bütün seçkilərə müsbət rəy verilib. Heç uzağa getməyək. Guya ki, onlarda baş verən inqilabdan əvvəl Sarkisyan hakimiyyəti qanunsuz zəbt etmək istədi, parlament seçkilərini saxtalaşdırdı, özünə 50 faizdən çox səs yazdırdı. Avropa Şurası Parlament Assambleyası, ATƏT-in müşahidəçi missiyası buna müsbət rəy verdilər. Yaxşı, görmürdünüz ki, bu adam saxtakardır, bu adam səsləri oğurlayıb, Ermənistanda seçicilərin kütləvi qaydada satın alınması prosesi gedir?! Beynəlxalq müşahidəçilər Sarkisyan hakimiyyətinə, onun saxtalaşdırılmış seçkilərinə müsbət rəy verir, ondan sonra xalq ayağa qalxır. Çünki erməni xalqı Sarkisyana və onun xuntasına nifrət edirdi, bunu gizlətmirdi və nifrətəlayiq bir ünsürdür. O vaxt xalq ayağa qalxanda onun hansı aciz vəziyyətdə olmasını bütün dünya görüb, qorxa-qorxa çəkildi kənara, dedi ki, mən səhv etmişəm, məni bağışlayın, qaçdı getdi. Qorxaq. Bunun başqa adı yoxdur. Amma özünü qəhrəman kimi göstərirdi. O hansı qəhrəmandır, bütün dünya gördü. Azərbaycanın dinc əhalisinə qarşı cinayət törədən o cəllad qorxaqcasına qaçıb gizləndi. İndi də əsas məqsədi odur ki, həbs olunmasın. Yəni, bu Sarkisyan xunta rejimi devriləndən sonra parlament seçkiləri elan olunur və onun faşist simvolikası ilə eyni simvolikası olan Respublikaçılar Partiyası heç 1 faiz də səs toplamır. Necə ola bilər, bir neçə ay bundan əvvəl o, 50 faiz, indi isə 1-2 faiz səs toplayır? Təbii ki, saxtakarlıq. Amma mənim sözüm onda deyil. O aydın məsələdir ki, Ermənistan saxta dövlətdir və əlbəttə ki, saxtakarlıq orada əsas amildir. Mənim sözüm bax, buna göz yuman, demokratiyadan dəm vuran, Azərbaycanı qaralamaq istəyən Avropanın saxtakar müşahidəçilərinədir. Cavab verin. Siz buna necə müsbət rəy vermisiniz ki, bu adama bütün erməni xalqı nifrət edir və seçkilər də onu göstərdi.

Ona görə bu məsələ tam aydındır və artıq bu riyakarlığın üstü tam açılıbdır. Artıq heç kimdə şübhə yoxdur ki, bütün bu qurumlar tərəfindən verilən qərarların əksəriyyəti siyasi xarakter daşıyır, siyasi sifarişdir. O ölkələr ki, onların qarşısında baş əyir, diz çökür, - Ermənistan kimi, - onların başını sığallayır, o ölkələr ki, ləyaqətli özünü aparır, ayaqda möhkəm durur və özünə qarşı hörmət tələb edir, - Azərbaycan kimi, - onlara hücum edir və hücumun da əsas tezisi insan haqları, demokratiyadır. Əlbəttə ki, bütün bunlar saxta iradlardır. Bayaq bizim haqqında danışdığımız beynəlxalq arenadakı uğurlarımız onu göstərir ki, Azərbaycan bu gün beynəlxalq siyasətin zirvəsindədir, amma bizə şər atanlar böhran içindədir.

***-Cənab Prezident, mənim sualım Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlıdır. Bu yaxınlarda ATƏT-in Minsk qrupu da bəyanat yayıb. Ümumiyyətlə, son dövrlərdə danışıqlarda hansı proseslər gedir və danışıqlar prosesində Azərbaycanın mövqeyində hər hansı bir dəyişiklik varmı?***

-Xeyr. Bizim mövqeyimizdə hər hansı bir dəyişiklik yoxdur, ola da bilməz. Çünki bizim mövqeyimiz haqq-ədalət mövqeyidir. Bizim mövqeyimiz həm tarixi ədalətə, eyni zamanda, beynəlxalq hüquqa əsaslanır. Mənim bu məsələ ilə bağlı kifayət qədər açıqlamalarım olub, o cümlədən beynəlxalq tədbirlər çərçivəsində və bunu artıq bilməyən yoxdur. Ona görə bizim mövqeyimizdə hər hansı bir dəyişiklik mümkün deyil, münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Heç vaxt Azərbaycan torpağında ikinci erməni dövlətinin yaranmasına icazə verilməyəcək. İşğal edilmiş bütün torpaqlar işğalçılardan azad edilməlidir, Azərbaycan vətəndaşları öz dədə-baba torpaqlarına qayıtmalıdırlar. Bu, prinsipial mövqedir və dünya birliyi bu mövqeyi dəstəkləyir.

Ölkəmizin ərazi bütövlüyü ilə əlaqədar bütün aparıcı beynəlxalq təşkilatlar müxtəlif vaxtlarda, o cümlədən son vaxtlarda açıq-aydın ifadələr işlədiblər, qərarlar, qətnamələr qəbul ediblər. BMT, onun Təhlükəsizlik Şurası, onun Baş Assambleyası, Qoşulmama Hərəkatı, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa İttifaqı, Avropa Şurası Parlament Assambleyası, NATO və digər təşkilatlar qətnamələr qəbul ediblər. Yəni, bu, hüquqi müstəvidir, bizim mövqeyimizi tam möhkəmləndirən mənzərədir.

O ki qaldı, tarixi ədalətə, hesab edirəm ki, bu haqda Münhen Təhlükəsizlik Konfransında kifayət qədər açıqlamalar verildi. Eşitmişəm ki, mənim çıxışımdan sonra Ermənistanda Kürəkçay sülh müqaviləsini əzbərləyirlər. Çox yaxşı, əzbərləsinlər ki, tarixi yaxşı bilsinlər və özlərini, beynəlxalq ictimaiyyəti aldatmasınlar. Çünki Kürəkçay sülh müqaviləsində erməni xalqı haqqında bir kəlmə də yoxdur. Bu müqaviləni bir tərəfdən İbrahim xan və digər tərəfdən Rusiya generalı imzalayıblar. İbrahim xan Qarabağlı və Şuşalı - onun vəzifəsi haqqında bax, bu epitetlər, bu sözlər deyilmişdir. Beləliklə, bu tarixi həqiqət əlbəttə ki, Ermənistan rəhbərliyi üçün gözlənilməz idi, yəqin bu tarixi bilmirdilər. Çünki onlar bir-birini o qədər aldadıblar, o qədər yalan danışıblar ki, bəzi hallarda bu yalana da inanırlar. Ermənistanın baş nazirinin Ermənistanda hansısa meydanda yalan danışması bir məsələdir, bu yalanı beynəlxalq tədbirdə utanmadan danışması isə digər məsələdir. O, erməni xalqına heç bir aidiyyəti olmayan çarı erməniləşdirib. Bu, tam yalandır. "Qarabağ Ermənistandır" - növbəti yalan. Bu məsələ ilə bağlı kifayət qədər tutarlı cavab da verildi. Ermənistanda baş verən hadisələrlə əlaqədar yalanlar.

Ona görə bu, məsələlərin bir tərəfidir. O ki qaldı, Minsk qrupunun bəyanatına, biz bunlardan başqa bəyanatlar, konkret bəyanatlar gözləyirik və onu eşitmək istəyirik. Ermənistanın baş naziri deyir "Qarabağ Ermənistandır". Buna mən cavab verirəm və lazımi cavab verirəm. Amma Minsk qrupu niyə buna cavab vermir? Niyə cavab vermir ki, bu ifadə, əslində, Minsk qrupunun formalaşdırdığı danışıqların mahiyyətini alt-üst edir, danışıqları faktiki olaraq əhəmiyyətsiz edir. Minsk qrupunun həmsədrləri buna adekvat reaksiya veriblər? Verməyiblər! Ermənistan tərəfi iki ildir danışıqların formatını dəyişmək istəyir və bəyan edir ki, Azərbaycan qondarma Dağlıq Qarabağın qondarma, saxta, dırnaqarası liderləri ilə danışıqlar aparmalıdır. Buna adekvat cavab verilir? Verilmir! Bəli, bəzi mücərrəd sözlərlə, nala-mıxa vurmaqla cavab verilir. Axı, o dövr keçibdir. Biz aydınlıq tələb edirik. Bu addımlar kim tərəfindən atılır? Ermənistan tərəfindən. Biz danışıqlar formatına da sadiqik, danışıqların mahiyyətini də əsas götürürük. Əlbəttə ki, o mahiyyətdə bizi heç də hər şey qane etmir. Ancaq biz demişik, bizi nə qane etmir və nə qane edir. Ermənistan nə edir? "Qarabağ Ermənistandır" deməklə tamamilə danışıqların mahiyyətini yerə vurur. "Formatı dəyişmək lazımdır" fikri danışıqları əhəmiyyətsiz edir. Yəni, buna adekvat reaksiya verilməlidir, yoxsa yox?! Qondarma Dağlıq Qarabağ respublikasının saxta seçkiləri nəticəsində seçilməmiş saxta prezident Şuşada andiçmə mərasimi keçirir. Buna adekvat cavab verilir, yoxsa yox?! Axı bu, açıq-aydın təxribatdır. İndiyədək heç kim tərəfindən tanınmayan bu kriminal Dağlıq Qarabağ rejiminin bir neçə dırnaqarası seçkisi olub, Şuşada toy-bayram keçirilib. Nə üçün buna adekvat reaksiya verilmir? Nə üçün deyilmir ki, bu, təxribatdır və bu təxribata görə Ermənistan cavabdehlik daşıyacaq. Bunu mən deyirəm. Amma onlar deməlidirlər, əgər istəyirlər ki, bu məsələ sülh yolu ilə həll olunsun. Nədir bunların bəyanatında əsas tezis - hərb variantı mümkün deyil. Kim deyir? Gedin açın BMT-nin Nizamnaməsini, baxın görün özünümüdafiə hüququ var ölkələrdə, yoxsa yox? Yoxsa siz özünüzü nə hesab edirsiniz?! Siz BMT-dən də üstünsünüz?! BMT-nin Nizamnaməsindən də üstünsünüz?! Belədirsə, gedin deyin, biz Minsk qrupunun həmsədrləri hesab edirik ki, BMT-nin Nizamnaməsində əks olunan bu tezis yanlışdır. Axı gərək hər şeyin həddi olsun. Ona görə biz onlardan daha ciddi, konkret və məqsədə ünvanlanmış bəyanatlar gözləyirik. Ermənistan işğal edilmiş torpaqlarda qanunsuz məskunlaşma aparır. Mən bu məsələni dəfələrlə qaldırmışam. Bizim bütün beynəlxalq təşkilatlardakı nümayəndə heyətlərinin üzvlərinə göstəriş verilib ki, bu məsələ onların gündəliyində bir nömrəli məsələ olmalıdır. Bu məsələ ilə bağlı Minsk qrupunun həmsədrləri açıqlama verir, yoxsa yox?! ATƏT-in axırıncı faktaraşdırıcı missiyası işğal olunmuş torpaqlarda 10 il bundan əvvəl olub. On il keçib. Son bir neçə il ərzində biz onlara təkidlə deyirik ki, yeni missiya getməlidir. Bu 10 il ərzində Ermənistan Suriyadan və başqa yerlərdən erməniləri oraya gətirib, onları zorla saxlayır. Bizim şəhərlərimizin tarixi adlarını dəyişdirir, işğal edilmiş torpaqlarda kilsələr tikir. Yəni, sabah deyəcək ki, bu, erməni torpağıdır. Dəfələrlə demişik onlara. Reaksiya var? Yoxdur! Yəni,10 il ərzində faktaraşdırıcı missiyanı göndərmək olmaz? İstəmirlər. Gedib nə görəcəklər?! Görəcəklər ki, orada məskunlaşma gedir. Amma bunu 10 il bundan əvvəl öz məruzələrində əks etdiriblər. Yəqin ki, indi əks etdirmək istəmirlər. Bu haqda bəyanat verib Minsk qrupu? Verməyib! Bilirsiniz, indi biz də dözümlülük göstəririk və konstruktiv olmağa çalışırıq. Amma bu gün faktiki olaraq danışıqlar prosesi getmir. Ermənistan və Azərbaycan Xarici İşlər nazirlərinin videokonfranslarının heç bir əhəmiyyəti yoxdur. Bu, sadəcə olaraq, Minsk qrupunun sanki fəaliyyətdə olmasını göstərir. Yaxşı, nə qədər olar? Fəaliyyətdə olmaq fəaliyyətdə olmaq deməkdir. Mən demişəm ki, biz danışıqları imitasiya üçün aparası deyilik. Biz danışıqları mahiyyət üzrə aparmaq istəyirik. İndi onlar bir söz çıxarıblar - substantiv danışıqlar. Özləri bu sözü çıxarıblar, aydındır bunun mahiyyəti nədir - bəli, mahiyyət üzrə danışıqlar formatı dəyişmədən və masa üzərində olan danışıqlar predmetinə əlavə etmədən. Belə olan halda, əlbəttə, biz danışıqlarda iştirak edəcəyik. Əks halda, mənasız danışıqların aparılmasına heç bir ehtiyac qalmayacaq. Bax, biz Minsk qrupundan bunu gözləyirik və öz mövqeyimizdə möhkəm dayanmışıq, haqq-ədalət bizim tərəfimizdədir. Biz haqlı olmağımızı həm beynəlxalq arenalarda göstərmişik, həm də döyüş meydanında və heç kimin Aprel döyüşləri yadından çıxmasın.

***-Cənab Prezident, çox sağ olun. Bizə vaxt ayırdığınıza görə Sizə dərin təşəkkürümüzü bildiririk.***

-Sağ olun. Təşəkkür edirəm sizə.

# “Prezident İlham Əliyevin təşəbbüsü ilə BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi tarixi hadisə kimi qiymətləndirilməlidir”

*Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidovun yap.org.az-a müsahibəsi*

***- Səməd müəllim, Prezident İlham Əliyevin BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi haqqında təşəbbüsü koronavirus pandemiyası ilə mübarzədə beynəlxalq əməkdaşlığa verilən töhfə kimi nə dərəcədə önəm kəsb edir?***



- BMT-yə üzv olan 193 ölkədən 130-nun Azərbaycanın, onun Prezidentinin təşəbbüsünü dəstəkləməsi tarixi hadisədir. Bu təşəbbüsün dəstəklənməsi dünya miqyaslı hadisə kimi qiymətləndirilməlidir. Çünki cənab Prezidentin təşəbbüsünün hər bir ölkə üçün böyük faydası var. Ona görə də, bu təşəbbüs müzakirə obyekti deyil. Müzakirə mövzusu odur ki, bu təşəbbüs Azərbaycan və onun Prezidenti tərəfindən irəli sürülüb.

Sual oluna bilər ki, bu təşəbbüsü başqa ölkələr də edə bilməzdimi? Axı böyük dövlətlər, BMT Təhlükəsizlik Şurasının üzvləri, inkişaf etmiş ölkələr var... Bütün bunları təhlil edərək təəssüflə qeyd etməliyik ki, beynəlxalq təşkilatlarda böhran, ölkələrdə özünə qapanma var. Dünyanın faciəsi ondadır ki, xüsusilə böyük dövlətlər öz maraqlarını düşünməyə çalışır. Bəzi ölkələrin də eqoizmi imkan vermir. Yəni onlar hansısa ölkənin təşəbbüslərlə çıxış etmələrindən qıcıqlanırlar. Belə bir zamanda Azərbaycan Prezidentinin təşəbbüsü çox faydalıdır. Çünki Azərbaycanın siyasəti və bu təşəbbüsü nəticəsində bir sıra ölkələr öz aralarında rəqabəti kənara qoyub əməkdaşlıq edirlər.

Bilirsiniz ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə ilk olaraq Türk Şurasının onlayn formatda Zirvə görüşü keçirildi. Pandemiyaya qarşı mübarizədə bu görüş türkdilli ölkələr çox faydalı bir platforma oldu. İkincisi isə, Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupunun onlayn formada Zirvə görüşünün keçirilməsi də pandemiyaya qarşı birgə əməkdaşlığa böyük töhfə oldu. Qoşulmama Hərəkatının üzvü olan elə ölkələr var ki, öz aralarında münasibətləri elə də yaxşı deyil. Amma Zirvə görüşündə bir yerdə oldular və birgə müzakirə apardılar. Yəni onları COVID-19 pandemiyasına qarşı mübarizə birləşdirir. Bu, o deməkdir ki, Azərbaycan Prezidenti İlham Əliyev pandemiya ilə mübarizəni regional səviyyədən beynəlxalq səviyyəyə, sonra da ümumbəşəri səviyyəyə qaldırıb.

Belə bir şəraitdə cənab Prezidentin təşəbbüsü ölkələrin öz aralarında rəqabəti kənara qoyaraq əməkdaşlıq etməyə sövq edib. Yəni, bir-birilə rəqabətdə, ziddiyyətdə olan ölkələr Azərbaycan Prezidentinin təşəbbüsü ilə pandemiyaya qarşı mübarizədə birləşib. Bu təşəbbüsün beynəlxalq birlik tərəfindən qəbul olunması Azərbaycan Prezidenti İlham Əliyevin dünyada böyük nüfuza sahib olduğunu bir daha təsdiqləyir.

Beləliklə, Azərbaycan birləşdirici siyasət həyata keçirir və cənab Prezidentin təşəbbüsü dünya miqyasında yüksək dəyərləndirilir.

***- BMT-yə üzv olan 130 ölkənin bu təşəbbüsü dəstəkləməsi Azərbaycan üçün hansı əhəmiyyətə malikdir?***

- Bilirsiniz ki, Azərbaycanın xarici siyasətinin əsas prioriteti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli, ölkəmizin ərazi bütövlüyünün bərpa olunmasıdır. Bu istiqamətdə dövlətimiz diplomatik müstəvidə uğurlu siyasət aparır.

Hesab edirəm ki, biz Qarabağ uğrunda mübarizə apararkən yalnız Qarabağdan danışmalı deyil. Bunun ən gözəl üsulu odur ki, Qarabağ mübarizə ilə bərabər Azərbaycanı dünyaya təqdim etmək potensialını ortaya qoymaq lazımdır. Azərbaycanın dünyanın enerji təhlükəsizliyinə verdiyi töhfə, cəmiyyətimizin inkişafı, mədəniyyətimiz, təhsilimiz də təqdim olunmalıdır. Hər bir məsələdə Qarabağ amili var.

Pandemiyaya qarşı mübarizə və Azərbaycan Prezidentinin təşəbbüsü humanitar məsələdir. Azərbaycan dünyanı narahat edən humanitar məsələ ilə bağlı mühüm təşəbbüs irəli sürüb. Yəni, Azərbaycan həmişə xoşməramlıdır, heç vaxt nahaq addımlar ata bilməz. Bunun əksini iddia edənlər isə ölkəmizə qarşə qərəzli münasibətdə olanlardır.

Ona görə də, bu hadisənin Azərbaycan üçün çox böyük əhəmiyyəti var. Cənab Prezidentin məlum təşəbbüsü dünyada imicimizi daha da artırır, ölkəmizin nüfuzunu yüksəldir, dünya dövlətləri içərisində hörmətimizi çox gücləndirir. Bu təşəbbüs həmçinin, Azərbaycanın dünya ölkələri ilə əlaqələrini genişləndirir.

Bütün bunlar Qarabağ məsələsinin ədalətli həllində üstünlüyümüzü artırır. Bu təşəbbüs həm də Azərbaycanı daha yaxşı tanımaq üçün gözəl fürsətdir. Bütövlükdə isə, cənab Prezidentin təşəbbüsünün dünya səviyyəsində qəbul olunması, BMT-nin özünün məsələsi kimi gündəmə gəlməsi böyük hadisədir.

Prezident İlham Əliyevin həyata keçirdiyi diplomatiya çoxşaxəlidir. Ona görə də, biz sabah yeni təşəbbüslərin də şahidi ola bilərik. Hazırki təşəbbüs Azərbaycanın olsa da, onun həyata keçirilməsi dünyanın işidir. Bütün hallarda tarix yazacaq ki, pandemiyaya qarşı mübarizədə BMT Baş Assambleyasının keçirilməsi təşəbbüsü Azərbaycana və onun Prezidenti cənab İlham Əliyevə məxsusdur.

***- İşğalçı Ermənistan BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi haqda təşəbbüsə qarşı çıxıb. Buna münasibətiniz necədir?***

- İşğalçı Ermənistan çalışdı ki, Azərbaycanın xoşməramlı təşəbbüsünün reallaşmasına əngəl törətsin. Amma bacara bilmədi. Bununla da, özü özünü ifşa etdi. Eyni zamanda, xoşməramlı, mühüm bir humanitar təşəbbüsə etiraz etməklə Ermənistan özü özünü inkar etdi. Bunun da məntiqi əsası var. Çünki Ermənistan heç vaxt dövlət olmayıb, onun dövlətçilik ənənəsi yoxdur. Ermənistan monoetnik ölkədir. O, beynəlxalq münasibətlər səviyyəsində özünü pandemiya ilə beynəlxalq mübarizədən təcrid etdi.

Azərbaycan Prezidenti İlham Əliyev mühüm beynəlxalq platformalarda işğalçı Ermənistanı daim ifşa edir. Valday, Münxen və digər beynəlxalq tədbirlərdə baş verənlər bunu bir daha təsdiqləyir.

## Bir neçə rayona yeni prokurorlar təyin olundu

Azərbaycan Respublikasının prokurorluq orqanlarında kadr korpusunun komplektləşdirilməsi istiqamətində işlər həyata keçirilir. Bu barədə SİA-ya Baş Prokurorluğun Mətbuat xidmətindən məlumat verilib. Belə ki, Baş prokuror Kamran Əliyevin imzaladığı müvafiq əmrlərlə, Qabil Səfərova Mingəçevir şəhərinin, Fəxrəddin Pənahova Sabirabad, Kamran Əhmədova Xocavənd, Elnur Rüstəmova isə Füzuli rayonunun prokuroru vəzifələrinin icrası həvalə edilib.

Bundan başqa, Baş prokurorun imzaladığı digər əmrlərlə Sahib İsmayılov Baş Prokurorluğun Təşkilat və icraya nəzarət idarəsinin Statistika şöbəsinin rəisi - idarə rəisinin müavini, Rəsul Həsənov isə Gəncə şəhər prokurorunun müavini vəzifələrinə təyin ediliblər. Kadr korpusunun peşəkarlıq və mənəvi keyfiyyətlərinə görə işçilərlə formalaşdırılması istiqamətində islahatlar davam etdirilir.

# Əli Əhmədov: “Milli şura növbəti dəfə erməni dəyirmanına su tökməklə məşğuldur”



***“Prezident İlham Əliyevin tutarlı dəlil-sübutlarla Ermənistanın təcavüzkar siyasəti ilə yanaşı, erməni rəhbərliyinin korrupsiyaya bulaşması faktlarını ifşa etməsi tək Azərbaycan cəmiyyətinə deyil, ermənilərin özlərinə də yaxşı məlumdur. Bu tənqidlərin torpaqlarımızı işğal etmiş düşmənlərdə ciddi narahatlıq yaratması başa düşüləndir”. SİA-nın verdiyi məlumata görə, bu fikirləri Azərbaycan Respublikası Baş Nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov özünün rəsmi “facebook” səhifəsində paylaşım edib.***

Əli Əhmədov qeyd edib ki, lakin nə qədər qəribə olsa da, Prezident İlham Əliyev tərəfindən erməni rəhbərliyinin ifşa edilməsinə ermənilərdən daha tez milli şura tərəfindən etirazlar səsləndirilməyə başlandı: “Milli şuranın başında duran Cəmil Həsənlinin internet televiziyalarından birinə verdiyi müsahibəsi insanda belə təsəvvür yaradır ki, vaxtilə həbs olunan bir korrupsionerin “hüquqlarının” müdafiəsi komitəsinə rəhbərlik edən tarix professoru indi Prezident İlham Əliyevin amansızcasına ifşa etdiyi Ermənistan rəhbərliyinin “hüquqlarını” müdafiə komitəsi təsis edib. Əks halda onun bu dərəcədə canfəşanlıqla erməni korrupsionerlərinin müdafiəsinə qalxmasının motivlərini başa düşmək mümkün deyil”.

“Mən dəfələrlə radikal müxalifətçilərin Azərbaycan hakimiyyətinə qarşı mübarizə aparmaq naminə irticaçı qüvvələrlə, hətta erməni millətçiləri ilə əməkdaşlığa hazır olduqlarını qeyd etmişəm. Növbəti dəfə onların bu yolda milli xəyanətdən belə çəkinmədiklərinin şahidi oluruq. Gözləndiyi kimi, milli şuranın milli xəyanəti erməni təbliğatının diqqətindən yayınmadı. Sosial media səhifələrində Cəmil Həsənli başda olmaqla milli şura üzvlərinin Azərbaycana atdığı böhtanlar erməni millətçilərinin əlində ölkəmizə qarşı apardıqları çirkin təbliğat kampaniyasında “tutarlı arqument” kimi istifadə olunur.” - deyə, Əli Əhmədov bildirib.

YAP-ın Sədr müavini Əli Əhmədov qeyd edib ki, bu insanların torpaqlarımızı işğal etmiş təcavüzkarların təbliğatçılarının dilindən yalnız “uvajaemıy muallim” (ermənilərin Azərbaycana qarşı hazırladıqları videoçarxlarda Cəmil Həsənlini belə adlandırırlar) epitetini qazanmaq naminə Azərbaycanın maraqlarını satmağa hazır olduqlarını düşünmək bəlkə də sadəlövhlük olardı: “Bu qədər ermənipərəstliyin, erməni heyranlığının, indiki erməni rəhbərliyinin təbliğində canfəşanlığın səbəbi olmaya bilməz. Yəqin ortada sövdələşmə qaydalarının bütün məqamlarının gözlənilməsi yox deyildir. Vaxtilə həmin cəbhəyə aid olan, şərti şəkildə desək, neytral zona olan Tiflisdə ermənilərlə Ruslan Bəşirli sövdələşməsi yaddaşlardan silinməyib. Lakin istənilən halda milli şura üzvlərinin yalan və böhtanları ölkəmizə qarşı aparılan erməni təbliğatında həvəslə istifadə olunur. Necə deyərlər, milli şura növbəti dəfə erməni dəyirmanına su tökməklə məşğuldur. Müasir siyasi leksikonda isə bunun adı xəyanətdir”.

***Ceyhun Rasimoğlu***

# Daha 200 mənzil şəhid ailələri və Qarabağ müharibəsi əlillərinə veriləcək

“Bu günlərdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi daha 200 mənzil alıb. Xüsusi karantin dövrü bitəndən sonra həmin mənzillər də şəhid ailələri və Qarabağ müharibəsi əlillərinə veriləcək”. ƏƏSMN-dan SİA-ya verilən məlumata görə, bunu Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev deyib.

Nazir bildirib ki, ümumilikdə mənzillə təminat prosesi il ərzində davam edəcək, ötən il 934 mənzil və fərdi ev şəhid ailələri və müharibə əlillərinə verilibsə, cari ildə bu say azı 1 500 olacaq. S.Babayev bildirib ki, həmçinin bu il artıq 100 avtomobil müharibə əlilləri və onlara bərabər tutulanlara verilib. Bu il üçün 400 avtomobilin həmin kateqoriyadan olan vətəndaşlara verilməsi nəzərdə tutulub. Ümumilikdə indiyədək Nazirlik tərəfindən şəhid ailələrinə və müharibə əlillərinə 7 900-ə yaxın mənzil və fərdi ev, müharibə əlilləri və onlara bərabər tutulanlara 6 850 minik avtomobili verilib.

# Aydın Mirzəzadə: ”Koronavirusla mübarizədə tempi azaltmaq olmaz”

“Koronavirusla mübarizə məsələsində kifayət qədər böyük dairədə işlər görülür. Bunu qiymətləndirməmək ədalətsizlik olar. Həm dövlət, həm müvafiq strukturlar, həm də bu işə məsuliyyətli olan insanlar tərəfindən görülən işlər öz bəhrəsini verir. Artıq yoluxma gündəlik müəyyən sayda dayanıb, artım yoxdur. Digər tərəfdən də insanlar daha çox koronavirusun təhlükəsini hiss edirlər. Mən bunu ərzaq almaq üçün gedərkən şəhərdə müşahidə edirəm. İnsanların mütləq əksəriyyəti tibbi maskadan istifadə edir və sosial məsafəni qorumağa çalışırlar”. Bunu SİA-ya açıqlamasında Milli Məclisin üzvü Aydın Mirzəzadə deyib. Onun sözlərinə görə, lakin hesab edirəm ki, mübarizə məsələsində tempi azaltmaq olmaz və təbliğat işinə güclü şəkildə fikir vermək lazımdır: ”Televiziya kanallarında, internet saytlarımızda bununla bağlı çox sayda materiallar, faktlar səsləndirilməlidir. Sadəcə olaraq bunun təhlükə yox, xəstəxanalarda, ailəliklə bu xəstəliyə yoluxmuş ailələrdə və ya hansısa bir yas məclisinə getməklə məclisin hamısının koronavirusa yoluxma faktları bizim informasiya məkanımızda çoxluq təşkil etməlidir. Eyni zamanda ara-sıra qaldırılan suallara operativ reaksiya vermək lazımdır. Məsələn mən Daxili İşlər Nazirliyini bu sahədə fəaliyyətini yüksək qiymətləndirirəm. Kimsə sosial şəbəkədə qanunazidd videogörüntü yerləşdirəndə və ya karantin əleyhinə çağırış səsləndirəndə dərhal həmin şəxslər məsuliyyətə cəlb edilirlər. Onların etiraflarını da cəmiyyətlə bölüşürlər”.

A.Mirzəzadə vurğulayıb ki, eyni zamanda mən çox istərdim ki, TƏBİB tək koronavirusla deyil, cari dövrdə digər xəstəliklərlə mübarizəni necə apardıqlarını da göstərsin: ”Çünki belə təsəvvür yaranır ki, TƏBİB ancaq koronavirusla məşğuldur. Axı insanlar başqa xəstəliklərlə də mübarizə aparırlar. Onların müalicəsi necə gedir. İnsanların sağlamlığı ilə əlaqədar əsas vəzifə necə yerinə yetirilir? Bunların da cəmiyyətlə paylaşılması çox vacib məsələdir. İstərdim ki, tanınmış insanların çağırışları tez-tez telekanallarda, saytlarda verilsin. Bu təkliflər aparılan əsas işə əlavələrdir. Əsas iş aparılır və bu işi qiymətləndirmək lazımdır”.

# "Azərbaycan tezliklə bu mübarizədən də qalib çıxacaq, yetər ki, məsuliyyətli olaq"

***"Qlobal pandemiya dövrünün çətinlikləri fonunda VI çağırış Milli Məclisin yaz və növbədənkənar sessiyası başa çatıb. Cari dövrün çağırışlarına cavab verən qanunvericilik fəaliyyəti ilə parlament fəaliyyət göstərdiyi vaxt ərzində ölkədə həyata keçirilən hərtərəfli islahatların, quruculuq işlərinin hüquqi bazasının daha da möhkəmləndirilməsi istiqamətində çox mühüm addımlar atdı, bir çox qanun və qərarlar qəbul etdi.***

Pandemiya dövrünü nəzərə alaraq xaricdəki həmkarlarımızla videokonfrans formatında bir çox görüşlər keçirildi. Bir sözlə, bu dövr ərzində müasir standartlara uyğun çoxsaylı qanun layihələri hazırlandı, qanunvericilik fəaliyyətinin daha təkmilləşdirilməsi istiqamətində çox mühüm işlər görüldü". Bu fikirləri SİA-ya açıqlamasında millət vəkili Məşhur Məmmədov deyib.

M.Məmmədov, ən çox narahatlıq doğuran məsələ insanların karantin rejiminə əməl etməmələri nəticəsində virusa tutulanların sayının artdığını bildirib: "İnsanlarımız artıq məsuliyyətsizliyə, bəhanəyə, laqeydliyə, biganəliyə son qoymalıdır. Xüsusi karantin rejiminin şərtlərinə birmənalı və istisnasız əməl etməlidirlər. Ən vacib məsələ isə, hər kəs bir nəfər kimi, kimliyindən, sosial, siyasi mənsubiyyətindən asılı olmayaraq, Operativ Qərargahın qərarlarına, səhiyyə işçilərinin məsləhətlərinə əməl etməlidir. Ən əsas isə, hər məsələdə örnək, nümunə olan dövlət başçısı cənab İlham Əliyev cənablarının çağırışlarına riayət etməliyik".

Millət vəkili onu da vurğulayıb ki, məhz bu məsuliyyətsizliyin nəticəsidir ki, sərtləşdirilmiş karantin rejimi iyul ayının 20-dək uzadılması ilə bağlı Operativ Qərargahın qərarı zamanında alınmış tədbir kimi qiymətləndiriliyi deyib: "Cəmiyyətdi fərdi və ictimai məsuliyyət olmalıdır. Karantin rejiminin qaydalarına əməl olunmalı, maska taxmayan insanlara qarşı ictimai qınaq mexanizminin tətbiq olunmalıdır. Məhz bu gün sərt karantin qaydalarının yenidən tətbiqi o da insanların sağlamlığı üçündür. Lakin insanlarımızın məsuliyyətsizliyi, biganəliyi nəticəsində virusa tutulanların sayı artır. Ölkə Prezidenti cənab İlham Əliyevin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın davamlı səyləri ilə vətəndaşların gözəgörünməz düşmən - virusla müharibədən az itkilərlə çıxması üçün həyata keçirdikləri sosial dəstək proqramları da xüsusi əhəmiyyət kəsb edir".



"Hər bir hərəkətdə ümummilli həmrəylik birinci yerdə dayanır"-fikrini deyən millət vəkili onu da qeyd edib ki, bu həmrəylik pandemiyanın yayılma zəncirinin qırılmasında özünü göstərməli, həm də müəyyən məqamlarda nümayiş olunmalıdır: "Pandemiyaya qarşı mübarizədə xalqdan ilk növbədə tələb olunan sosial məsafənin gözlənilməsi, şəxsi gigeyinik qayadalarına riayət olunması, tibbi maskanın taxılması və evdə qalmasıdır. Belə baxanda, bu ürək açan olmasa da o qədər də çətin tələblər deyil. Əgər biz pandemiyaya qalib gəlmək istəyiriksə bu işə səbrlə yanaşmalıyıq və həmrəylik nümayiş etdirməliyik. Koronavirus pandemiyası insanlarımızın həmrəyliyik göstərməsi baxımından bir sınaq oldu. Cənab Prezident Koronavirusla Mübarizəyə Dəstək Fondu yaratdı və bu fonda dövlət büdcəsindən 20 milyon manat vəsait ayırdı. Sonra isə cənab Prezident və Birinci vitse-prezident bir illik əmək haqlarını bu fonda ianə etdi. Ardınca, ölkədə vətəndaşlarımızın böyük həmrəyliyinin şahidi olduq. İnsanlar öz maddi imkanları daxilində fonda ianələr etməkdə davam etməkdədir və bu gün fondun vəsaitləri 113 milyonu keçmişdir. Həm də sosial vəziyyəti aşağı olan ailələrə imkanlı şəxslər tərəfindən ərzaq və gündəlik tələbat mallarının yardımlarında bir həmrəyliyini gördük. Sevindirici haldır ki, xalqımız çətin anlarda birləşə bilir və vətəndaş həmrəyliyini nümayiş etdirir".

M.Məmmədov, həmçinin bildirib ki, karantin rejiminin yumşaldılması laqeydliyə əsas verməməli, heç kim arxayınlaşmamalıdır: "Son günlər əhali arasında karantin rejiminin tələblərinə riayət etməyənlərin sayında artım müşahidə olunur. Küçəyə çıxan insanlar qoruyucu vasitələrdən kütləvi halda istifadə etmir, sosial məsafəni qorumur. Məhdudiyyətlər götürülsə belə, insanlar sanitar normalara əməl etməlidir. Dövlət üzərinə düşəni edib, artıq vətəndaşlar da üzərilərinə düşən qaydalara əməl etməlidir. Çünki əhali tərəfindən xüsusi karantin qaydalarına əməl edilməməsi Azərbaycanın hər bir vətəndaşının sağlamlığının qorunması istiqamətində dövlətin həyata keçirdiyi tədbirlərin səmərəliliyini təhlükə altında qoyur. Təəssüflə etiraf etməliyik ki, xüsusi karantin rejimi yumşaldılandan və sərt qadağalar aradan qaldırılandan sonra yoluxma hallarının sayında artım müşahidə olunmağa başladı. Bu isə hökuməti ölkədə pandemiya ilə mübarizəni yenidən sərtləşdirməyə məcbur etdi. Belə ki, son həftələrdə vətəndaşlarımızın böyük bir hissəsinin müəyyən olunmuş qaydalara və təcrid tövsiyələrinə riayət etməməsi koronavirusa yoluxma sayında ciddi artım müşahidə olunmaqdadır. Faktlar və rəqəmlər vətəndaşların özünütəcrid kimi çox vacib bir tələbə əməl etmədiklərini göstərdi. Yumşalma tədbirləri o zaman səmərəli olur ki, qoyulan tələblərə əməl olunsun. Bəzi vətəndaşların xəstəliyin ciddiliyinə varmayıb ona səthi, etinasız yanaşması təcrid qaydalarının bu dəfə da sərtləşdirilməsini günün tələbinə çevirdi. Doğrudur, yenidən sərt karantin rejiminə keçid hər kəsi narahat edir. Lakin real həqiqətlə razılaşmalıyıq: müəyyən edilmiş qaydalar yalnız və yalnız əhalinin koronavirus infeksiyasına yoluxma hallarını minimima endirmək və az itki ilə çıxmaq məqsədinə xidmət göstərir. Unutmayaq ki, hər bir məsuliyyətsiz davranma, hər bir qayda pozuntusu özümüzün və ətrafımızdakı insanların həyatını risk altına atmaq deməkdir. Hər evdən çıxma, hər bir kənar şəxslə təmas infeksiyaya yoluxma deməkdir. Və bizlər, hər kəs göstərilən qaydalara riayət edərək dövlətimizin bu sahədəki siyasətinə dəstək olmalıyıq. Elə cənab Prezident İlham Əliyevin 3 iyun 2020-ci il tarixində Tərtərdə Dövlət Rəmzləri Muzeyinin açılışında iştirak edərkən maskadan istifadə etməsi əslində hər birimizə nümunədir. Hər bir şəxs sosial məsuliyyətdən irəli gələrək özünü, yaxınlarını və digər cəmiyyət üzvlərini qorumaq üçün mövcud sanitar-gigiyenik qaydalara riayət etməli, başqalarını da bu işə sövq etməli, xüsusi karantin rejiminin qaydalarına əməl etməyənlərə məsləhətlər verməli, qınaq etməlidir. Hər bir kəs belə şəxsləri başa salmağa çalışmalıdır ki, pandemiya vəziyyəti hələdə davam etdiyindən, virusla mübarizə hər kəsin gündəlik həyat tərzinə çevrilməlidir. Bununla təkcə özümüzü yox, yaxınlarımızı yox, bütövlükdə cəmiyyətimizi qoruyacağıq.

Ölkə başçısının da qeyd etdiyi kimi, hər birimiz güclü olaraq bir yerdə bu virusun öhdəsindən gələcəyik. Mən ümidlə baxıram ki, Azərbaycan tezliklə bu mübarizədən də qalib çıxacaq. Yetər ki, məsuliyyətli olaq və qaydalara əməl edək".

**RƏFİQƏ HÜSEYNOVA**



## Dövlət Təhlükəsizliyi Xidməti Xarici İşlər Nazirliyində keçirilən əməliyyatla bağlı məlumat yayıb

***Məlumat verildiyi kimi, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin (XİN) bəzi vəzifəli şəxslərinin öz səlahiyyətlərindən qəsdən qulluq mənafeyinə zidd olaraq istifadə edib dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vuran çoxsaylı qanunazidd əməllərə yol verməri ilə bağlı Dövlət Təhlükəsizliyi Xidmətinə (DTX) daxil olmuş məlumatlar əsasında istintaq-əməliyyat tədbirləri həyata keçirilib.***

AZƏRTAC DTX-nin saytına istinadla xəbər verir ki, XİN-in ayrı-ayrı strukturlarının fəaliyyətinin təmin edilməsi üçün nəzərdə tutulan dövlət vəsaitlərinin ələ keçirilməsi, müxtəlif fəaliyyət istiqamətləri üzrə, eləcə də xarici ölkə vətəndaşlarının viza müraciətləri ilə bağlı rüşvət alınması və sair hüquqazidd əməllərin törədilməsi ilə bağlı əldə edilmiş məlumatlar araşdırılıb, nazirliyin İşlər idarəsinin müdiri, Nazirliyin Tender Komissiyasının sədri Fərhad Mollazadə, İşlər idarəsinin Təsərrüfat şöbəsinin müdiri Səlim Əlizadə və Konsulluq idarəsinin Konsulluq-hüquq şöbəsinin rəisi Nurupaşa Abdullayev tərəfindən çoxsaylı qanunsuz əməllərə yol verməri əsaslı şübhələr müəyyən edilib.

Məhkəmənin qərarları əsasında Fərhad Mollazadənin, Səlim Əlizadənin, Nurupaşa Abdullayevin xidməti və yaşadıqları ünvanlara, habelə dövlət vəsaitlərinin əmtəəsiz əməliyyatlarla mənimsənilməsi üçün yaradılmış hüquqi şəxslərə dair sənədlərin və işlərin görülməsi üçün vəsait ayrılması müqabilində rüşvət ödənildiyi barədə sənədlərin olduğu yerlərə baxış keçirilib. Həmin ünvanlardan XİN-in vəzifəli şəxslərinə qaytarılmış nağd pul vəsaitlərinin məbləğlərinə dair müxtəlif qeydlər, pul vəsaitləri və iş üzrə əhəmiyyət kəsb edən digər dəlillər aşkarlanaraq götürülüb.

İstintaq araşdırmaları zamanı Fərhad Mollazadə və Səlim Əlizadə tərəfindən XİN-in strukturlarının fəaliyyətinin təmin edilməsi məqsədilə dövlət büdcəsindən ayrılan vəsaitlərin bir hissəsinin müntəzəm olaraq mənimsənilməsinə əsaslı şübhələr müəyyənləşdirilib.

Həmçinin, Fərhad Mollazadənin və Səlim Əlizadənin XİN-in təsərrüfat tələbatları üzrə malların alınması, işlərin görülməsi üçün hesablarına pul köçürülən sahibkarlardan həmin vəsaitin müəyyən hissəsi dəyərində rüşvətin istənilərək almalarına dair məlumatlar əldə olunub.

Bundan başqa, aparılan araşdırmalarla Xarici İşlər Nazirliyinin Konsulluq idarəsinin Konsulluq-hüquq şöbəsinin rəisi Nurupaşa Abdullayevin vəzifə səlahiyyətlərindən istifadə edərək elektron vizanın tətbiq olunmadığı xarici ölkə vətəndaşlarının Azərbaycan Respublikasına gələ bilmələri üçün viza müraciətlərinin təmin edilməsi ilə bağlı qanunazidd hərəkətlər müqabilində müntəzəm rüşvət almasına əsaslı şübhələr müəyyən olunub.

Dövlət Təhlükəsizliyi Xidmətində aparılan cinayət işi üzrə Fərhad Mollazadə və Səlim Əlizadə vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, mənimsəmə, rüşvət alma, Nurupaşa Abdullayev rüşvət alma faktlarına görə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Hazırda cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.

## Rusiyanın Azərbaycanın hava məkanından istifadə edərək İrana zərbə endirməsi yalandır




Azərbaycan Müdafiə Nazirliyi İrana hava zərbələri endirdiyi iddia edilən və Rusiyanın "Konteyner" RLS-i tərəfindən aşkar edilən naməlum hərbi təyyarələrin Azərbaycanın hava məkanından istifadə etmələri barədə məsələyə münasibət bildirib. Nazirlikdən SİA-ya bildiriblər ki, Ermənipərəst qüvvələrin yaydığı bu xəbərin heç bir əsası yoxdur və yalandır: "Bu cür məlumatın yayılması Azərbaycan-İran münasibətlərinə xələl gətirmək məqsədini güdür. Tamamilə aydındır ki, iki ölkə arasında xoş münasibətlərə zərər vurmaq məqsədilə yayılmış məlumat şər və böhtandan başqa bir şey deyil. Bildiririk ki, Azərbaycan ərazisindən qonşu ölkə olan İran İslam Respublikasına qarşı indiyədək heç bir addım atılmayıb və bundan sonra da atılmayacaq".

## 2 polis əməkdaşı koronavirsudan vəfat edib



Azərbaycanda 2 polis əməkdaşı koronavirusdan ölüb. SİA-nın məlumatına görə, Bakı şəhərində xəstəxanada müalicə olunan həmin şəxslərdən biri iyulun 1-də, digəri isə iyulun 4-də dünyasını dəyişib. Həmin şəxslər polis polkovnik-leytenantı və polis mayoru rütbəsində olublar. Məlumata görə, polis polkovnik-leytenantının ölümündən bir gün əvvəl anası da vəfat edib. Daxili İşlər Nazirliyinin Mətbuat Xidməti faktı təsdiqləyib.

# “Yeni qadağalar sırf əhalinin sağlamlığı üçün atılıb”

***“Azərbaycan pandemiya ilə mübarizənin növbəti və arzuolunmaz mərhələsini yaşayır. Əksər ölkələrdə tətbiq olunan yumşaldılma tədbirlərindən sonra infeksiyaya yoluxanların sayında yenidən artım müşahidə olunmaqdadır. Bu baxımdan mövcud durum Azərbaycan üçün spesifik deyil və karantin rejimi yumşaldılan bütün ölkələrdə onun yayılması baş verməkdədir”. Bunu SİA-ya Əməkdar jurnalist Elman Babayev deyib.***

“Ölkmizdə indiki dalğanın yaşanmaması mümkün idimi? Dövlətin pandemiya ilə mübarizədə həyata keçirdiyi tədbirlər yetərli oldumu? Başqa hansı addımlar atıla bilərdi? Bu qəbildən olan suallar çoxdur və son vaxtlar yaşananlar fonunda aparılan müzakirələrin əsas qayəsini də təxminən qeyd olunan istiqamətlər təşkil edir.



“Dövlət nə edib”- sualına cavab axtarsaq, burada ilk gündən atılan addımlara diqqət çəkmək vacibdir. İnfeksiya ilə mübarizə birinci günündən ölkə rəhbərliyinin nəzarəti altında aparılıb və aparılmaqdadır. Bu xəstəliyin daha geniş məkanda yayılmasının qarşısının alınması məqsədilə prezident İlham Əliyevin tapşırığı və birbaşa rəhbərliyi ilə çoxşaxəli tədbirlər icra olunub. Zaman itirilmədən Tədbirlər Planı hazırlanaraq dərhal icraya yönəldilib. Əhalinin sağlamlığının qorunmasını və təhlükəsizliyini hədəfləyən bu sənəd, həmçinin imkan verdi ki, pandemiyanın birbaşa təsir etdiyi sahələrə dəstək verilsin, biznesin aktivliyi qorunsun və əhalinin sosial vəziyyətinin ağırlaşması istiqamətində təcili addımlar atılsın. Təxirəsalınmaz geniş tədbirlər dəfələrlə vurğulanıb və məhz bu tədbirlər ona gətirib çıxartdı ki, infeksiyanın geniş yayılmasının qarşısı alındı, sosial-iqtisadi aktivlik tez bir zamanda bərpa olundu. Məhz digər ölkələrlə müqayisədə Azərbaycanın daha qabaqlayıcı tədbirlər həyata keçirməsi, bu tədbirlər hesabına koronavirusla mübarizə sahəsində uğurlu nəticələr əldə etməsi Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən bəyan olundu.

Amma sonrakı mərhələdə, yumşaldılma tədbirlərindən sonra ölkəmizdə infeksiyaya yoluxanların sayında artım baş verdi. Düzdür, hazırda vəziyyət nəzarət altındadır və artıq yoluxmanın qarşısının alınması ilə yenidən müsbət nəticələr əldə olunur, davamlı preventiv tədbirlərin nəticəsi olaraq yoluxma səviyyəsinin daha da kəskinləşməsinin qarşısı alınır.

Fəqət əvvəlki nəticələr itirilib və müəyyən dairələr günahkar axtarışına çıxıb. Əfsuslar olsun ki, qərəzli və ictimai rəyi çaşdıran mövqe tutanlara rast gəlinməkdədir; bütün bunların baş verməsində hakimiyyət günahkardır kimi...

Hakimiyyət rəsmilərinin, həkimlərin, bu sahə üzrə mütəxəssislərin karantin rejimi yumşalandan sonra ən başlıca çağırışı nə idi? Qaydalara birmənalı əməl olunmalıdır, əks təqdirdə yoluxma səviyyəsində artım müşahidə ediləcək və yenidən sərtləşmə tədbirlərinə əl atılacaq. Təəssüf ki, bu belə də oldu; əhalinin əks-epidemik tələblərə zəif riayət etməsi yoluxma səviyyəsinin artmasına gətirib çıxartdı. Bu, birmənalı olaraq belədir. İndiki şəraitdə baş verənləri görmək bu qədərmi çətindir?

Həyatını təhlükəyə atıb küçələrdə qaydalara nəzarət edən polisi, əsgərləri aldatmaq üçün nələrə əl atılmır? İki həftəlik qadağadan qaçmaq üçün torpaq yollarla rayonlara qaçmaq istəyən də, tibbi maskanı dirsəyinə taxan da, fiziki məsafə saxlamayan da, heç nədən marketlərə axın edib sıxlıq yaradan da, pensiya, maaş kartındakı vəsaiti nağdlaşdırmaq üçün yaradılan mövcud imkanlardan istifadə etməyib bankomatların qarşısına axışan da bizlərik. Belə davam etdikcə bütün tədbirlər mənasız olacaq və nəticələr uzunömürlü olmayacaq.

Fakt odur ki, hakimiyyət növbəti sərt karantin rejiminə məcburiyyət qarşısında getməli olub. İqtisadiyyatdakı itkilər göz önündədir. Bu itkilər arxa palana keçirilərək yenidən qadağalara əl atılıb və infeksiyanın geniş yayılmasının tam qarşısının alınması , əldə edilmiş müsbət nəticələrin qorunub saxlanılması üçün karantin rejiminin yenidən bərpası zərurəti yaranıb. Artıq sərt karantin rejiminin ikinci həftəsi tamamlanır, lakin yoluxma səviyyəsi stabilləşsə də yüksək olaraq qalır.

Çıxış yolu nədir? Yeganə yol odur ki, hamı bir nəfər kimi karantin rejimində tətbiq edilən bütün məhdudiyyətlərə riayət etməlidir. Nə qədər ki, bu problemin təkcə hakimiyyətin deyil ümumxalq problemi olduğunu dərk edib infeksiya ilə mübarizədən qalib çıxmaq üçün səfərbər olmamışıq, nəticə dəyişməyəcək.

Bizdən çoxmu şey tələb olunur; fiziki məsafə, tibbi maska, sanitar qaydalara riayət etmək. Bu bir neçə qaydadan qaçdıqca, infeksiya bizə daha da yaxınlaşacaq.

Əhalinin sıx təmasda olduğu məkanlarda bu qaydalara riayət edilməsi üzərində ciddi ictimai nəzarət olmalıdır. Bu təkcə polisinmi işidir? Hər bir vətəndaş birlikdə bu mübarizəyə qoşulmalıdır, əlinə əlcək taxmayan aptek satıcısından əlinə əlcək geyinməyi tələb etməlidir, marketə maskasız daxil olana irad bildirməlidir, adi növbə qaydalarına pozanlara qarşı olmalıdır, ictimai nəqliyyata tibbi maskasız daxil olanı və ya ancaq polis yaxınlaşanda ondan istifadə edəni qınamaqdan çəkinməməlidir. Belə adamların bütün cəmiyyət üçün təhlükəli olduğunu anlamalıyıq.

Bir daha onun üzərinə gəlirik ki, hamı bu tələblərə riayət etsə, pandemiya tez başa çatacaq. Hazırda bu sahədə vahid dünya təcrübəsi mövcud deyil və infeksiyanın yayılmasının qarşısını almaq üçün yeganə tələb qaydalara hamı tərəfindən və ciddi əməl etməkdir. Yalnız mövcud qaydalara riayət etməklə xəstəliyin yayılma zənciri qırılmalıdır.

Son günlər tətbiq olunan yeni qadağalar da sırf əhalinin sağlamlığı üçün atılıb. Bunun əksinə olan təbliğat isə ancaq və ancaq ümumi işə zərbə vura bilər. Məsələn bildirilir ki, əhalinin rayonlara gediş-gəlişinə imkan verilməlidir və Bakı nisbətən boşalmalıdır. Bu addımın infeksiyanın yayılmasının təşviq edilməsinə səbəb ola biləcəyi barədə ekspert rəyləri isə görməzdən gəlinir. Əksər epidemioloq ekspertlərin fikrincə, istənilən epidemiyanın qarşısının alınması üçün onun lokallaşdırılması və izolyasiyası birinci şərtdir. Epidemik qaydalara riayət etmədən şəhəri tərk etmək infeksiyanın yayılmasını sürətləndirməyə xidmət edəcək. Eyni zamanda, pandemiyanın qarşısını almaq üçün hər bir xəstənin tapılması və onun müalicə edilməsi də vacibdir. Əks halda epidemiyanın yayılması davam edəcək və bu səbəbdən rayonlara gediş-gəlişin açılması epidemiyanın yayılmasına səbəb ola bilər.

Bundan başqa, can atdığımız rayonlarda da karantin rejimin tələblərinin pozulması hallarının olduğunu nəzərə almalıyıq. Təşkil olunan mərasimlər ancaq və ancaq təhlükə mənbəyidir. Nəzərə alınmalıdır ki, belə ictimai tədbirlər çox ciddi və arzuolunmaz nəticələrə gətirib çıxarır.

Digər məqam metronun bağlanılması ilə bağlıdır və bunun ciddi sıxlığa səbəb olacağı önə çəkilir. Lakin bunun qarşısının alınması üçün işlər görülüb. Əvvəlki karantin dövründə olduğu kimi, əlavə avtobuslardan istifadə ediləcək; bu proses monitorinq olunacaq, sıxlıq olarsa avtobus sayı əlavə artırılacaq. Burda əhalinin üzərinə də məsuliyyət düşür. Mövcud durumla ayaqlaşmaq zorundayıq və sıx olan avtobuslara minməkdən imtina etməliyik.

Müzakirə olunan məsələlərdən biri yollarda postların götürülməsidir. Yəni, yoluxma enməyibsə, sərt karantin qüvvədədirsə, bu addım niyə atılıb? Bunun əsas səbəbi bu prosesin optimallşdırılmasıdır. Belə ki, postlar əksər ərazilərdə sıxlıq yaradırdı. İndi postlar insanların sıx təmasda olduğu məkanlarda qurulmaqla, epidemik tələblərə riayət üzərində nəzarət gücləndiriləcək, eyni zamanda, hərəkətdə olan avtomobillərin hərəkətinə də nəzarət ediləcək.

Təcili tibbi yardımdan narazılıqlara da rast gəlinməkdədir. Bu sırf daha çox müraciətin olması ilə bağlı məsələdir. Müvafiq qurumların tövsiyələrinə əsasən, adi narahatçılığa görə təcili tibbi yardıma deyil, poliklinikaya müraciət edilməlidir. Belə olarsa, bu, təcili tibbi yardıma müraciət sıxlığını aradan qaldırmağa imkan verəcək. Bundan başqa, əhali ev şəraitində özünü müalicə edən zaman həkim nəzarəti olmadan müxtəlif dərmanlardan istifadədən imtina olunmalıdır. Mümkün qədər poliklinikaya telefon vasitəsilə müraciət edilməlidir. Xüsusilə test verən zaman şəxsi məlumatlarını dəqiq bildirməlidir. İnfeksiya ilə yoluxan insanların həkimlərə müraciət etməməsi sonradan infeksiyanın yayılmasına səbəb olur. İnfeksiya ilə yoluxandan və ya xəstələnəndən sonra bu barədə məlumat verməkdən çəkinməməliyik. Bu, həm yoluxmuş vətəndaşın özünün tez sağalması, həm də ölkədə infeksiya ilə mübarizəyə dəstək üçün zəruridir.

Ölkədə əhalinin müalicəsi, onun pandemiyadan qorunması üçün dərman və maska təminatında da heç bir problem yoxdur. Qalır mövcud durumla ayaqlaşmaq. Məhrumiyyət və qadağalar hamını narahat edir. Amma bu beladan yaxınlarımızı və özümüzü qorumaq üçün başqa yol yoxdur! Ən inkişaf etmiş ölkələr də vəziyyət eynidir, fərqli deyil!”-deyə, E.Babayev fikrini tamamlayıb.

***Ceyhun Rasimoğlu***

## Rusiyada son sutka ərzində 6 min 611 nəfər koronavirusa yoluxub



Rusiyada son sutka ərzində 6 min 611 nəfər koronavirusa yoluxub. SİA-nın məlumatına görə, bununla da ölkədə COVID-19 xəstələrinin sayı 687 min 862 nəfərə çatıb. Son 24 saat ərzində daha 135 nəfər koronavirusdan ölüb və bununla ümumi say 10 min 296 nəfər olub. Bu gündək 454 min 329 nəfər xəstəliyə qalib gəlib. Hazırda Rusiyada 223 min 237 aktiv COVID-19 xəstəsi var.

## “Bu zirvə toplantısında Azərbaycanın təşəbbüsünü Qoşulmama Hərəkatına üzv dövlətlərin hər biri dəstəkləyib”



“İyulun 2-də Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qaninin təşəbbüsü ilə 3 tərəfli videogörüş keçirilib. Bu görüşdə prezident İlham Əliyev, Türkmənistan prezidenti cənab Qurbanqulu Berdiməhəmmədov və Əfqanıstan prezidenti iştirak edib. Videogörüşdə bu gün region üçün aktual məsələlər müzakirə olunub və bu məsələlər ölkələrimizin arasındakı münasibətlərin daha da strateji əməkdaşlığının yüksək səviyyədə olduğunun göstəricisidir”. Bunu SİA-ya açıqlamasında Milli Məclisin deputatı Azər Badamov deyib.

Deputat bildirib ki, ilk növbədə Azərbaycan Qoşulmama Hərəkatına sədrlik edir və təşəbbüsümüzlə Qoşulmama Hərəkatının zirvə toplantısı keçirildi: “Bu zirvə toplantısında Azərbaycanın təşəbbüsünü Qoşulmama Hərəkatına üzv dövlətlərin hər biri dəstəkləyib. Bu təşəbbüs BMT-nın baş katibinə ünvanlanmış müraciət idi və o müraciəti də həm Türkmənistan, həm də Əfqanıstan dəstəkləyib. Bu bir daha onu göstərir ki, beynəlxalq arenada Türkmənistan, Azərbaycan və Əfqanıstan birbirlərini dəstəkləyən ölkələrdir. Təhlükəsizlik sahəsində isə Azərbaycan NATO-nun sülhməramlı qoşunları tərkibində Əfqanıstana öz əsgərlərini göndərir və orada sülhün təminatında yaxından iştirak edir. Bu Azərbaycanın beynəlxalq səviyyədə sülhün yaradılmasına töhfəsi kimi qeyd edilə bilər. İqtisadi sahədə isə Azərbaycanın təşəbbüsü ilə icra olunmuş beynəlxalq nəqliyyat dəhlizləri bu gün region üçün vacib layihələrə çevrilib. Artıq istifadəyə verilmiş qərb-şərq dəhlizi Azərbaycanın təşəbbüsü ilə həyata keçirilmiş Bakı-Tibilisi-Qars layihəsi, Ələtdə tikilmiş beynəlxalq ticarət limanı bu imkanları daha da genişləndirib. Artıq yüklər Asiyadan Avropaya qədər Azərbaycan üzərindən daşınmağa başlanıb”.

## AZAL yenidən vətəndaşlara müraciət etdi



Azərbaycanın milli aviadaşıyıcısının (AZAL) çarter reyslərinə aviabilet satışı haqqında müxtəlif məlumatların meydana çıxması ilə əlaqədar AZAL aviaşirkəti yalnız Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargahın, aviaşirkətin və ya səfirliyin/konsulluğun təqdim etdiyi rəsmi məlumata etibar etməyi sərnişinlərdən bir daha xahiş edir. “Azərbaycan Hava Yolları” (AZAL) QSC-nin mətbuat xidmətindən SİA-ya bildirilib ki, AZAL aviabilet alışı zamanı aviaşirkətin rəsmi internet saytından (www.azal.az) istifadə etməyi, provokasiyaya uymamağı və qeyri-rəsmi məlumatlara inanmamağı sərnişinlərə israrla tövsiyə edir. Əks halda, sərnişin həm vaxtını, həm də pul vəsaitini itirə bilər.

Aviaşirkət bir daha sərnişinlərə xatırladır ki, pandemiya dövründə yerinə yetirilən çarter və ya xüsusi reyslər barədə bütün məlumat AZAL-ın internet saytında və aviadaşıyıcının sosial şəbəkələrdəki rəsmi profillərində yerləşdirilir. “Azərbaycan Hava Yolları”, həmçinin provokasiya xarakterli hərəkətləri, yəni qəsdən qeyri-dürüst məlumatın yayılmasını araşdırmaq üçün hüquqmühafizə orqanlarına müraciət etmək hüququna malikdir.

# Prezidentimizin tarixi xidmətlərini qədirbilən xalqımız heç vax unutmayacaq

***Bu həqiqətən də illər böyu sınanmış deyimdir ki, hər bir dövlət xadiminin, tarixi şəxsiyyətin real gücü, qüdrəti tarixin ən ağır, ən çətin dönəmlərində üzə çıxır. İndi dünyanın bir çox böyük dövlətlərinin belə dünyanı ağuşuna alan koronavirus pandemiyasının ağır fəsadları qarşısında zəif, naəlaac qaldığı bir məqamda Azərbaycanda Prezident İlham Əliyevin müdrik liderliyi ilə bu təhlükənin önlənməsi, xüsusilə də əhalinin sağlamlığının qorunması üçün ardıcıl, düşünülmüş addımlar atılır. Nəticədə göz qabağındadır.***



Belə ki, ndiki son dərə narahat, taleyüklü bir dönəmdə ölkəmizə Prezident İlham Əliyev kimi müdrik siyasətçi, görkəmli dövlət xadimi rəhbərlik edir. Və məhz dövlət başçımızın ardıcıl siyasəti nəticəsində Azərbaycan xalqı və dövləti, bəlkə də, son yüzilin ən ağır sınağından uğurla, zəfərlə çıxmaq üzrədir. Təhlükənin ilk anından "Biz birlikdə güclüyük" deyə bəyan edən və dövlətin bütün resurslarını səfərbər etməyi bacaran cənab Prezidentin tarixi xidmətləri nə qədirbilən xalqımız unudacaq, nə də əlahəzrət zaman.

### Azərbaycan dövləti heç bir vaxt hər hansı böyük dövlət və ya beynəlxalq təşkilatın diqtəsi ilə hərəkət etmir

Çünki Azərbacan Prezidentinin sözü ilə əməli birdir. Məhz bunun nəticəsidir ki, Prezident İlham Əliyev hakimiyyətdə olduğu son 17 il ərzində bu, Azərbaycanın siyasi sabitliyində, iqtisadi gücündə, sosial rifahında, güclü ordusunda və uğurlu xarici siyasətində öz təsdiqini tapır. Və təsadüfi deyildir ki, hər gün minlərlə soydaşımız Prezidentimizə ünvanladığı yüzlələr minnətdarlıq məktublarında da bunu bir daha vurğulayırlar və öz rəhbərləri ilə fəxr, qürur hissi keçirdiklərini bildirirlər. Dövlət başçısı dəfələrlə bəyan edir ki, bütün imkan, potensial və resurslarımızdan istifadə edib dünyanı ağuşuna alan bu pandemiyadan şərəflə çıxacağıq. Ancaq bir şərtlə...

### Hər kəs özündə sosial məsuliyyət hiss etməlidir

Lakin bəzi vətəndaşlarımızın karantin rejiminə əməl etməməsi yüksək yoluxma faktlarının artıdığını göstərir. Elə bu səbədən də, xüsusi karantin rejimi iyulun 4 iyul saat 00:00-dan 20 iyul saat 06:00-dək uzadılması dövlətimizin vətəndaşlarının sağlamlığının ən vacib olmasının göstəricisidir. Onu da vurğulamaq istərdim ki, bu gün həqiqətən də, həmrəyliyimiz və birliyimiz heç zaman olmadığı qədər ən yüksək səviyyədədir. Məhz xalq-prezident birliyi və ülviyyəti də bu böyük sınaq zamanında möhkəmlik yolunu şərəflə keçir. Heç bir daxili və xarici qüvvə bu vəhdəti poza bilməz. Çünki arxasında xalqı dayanan Prezident yenilməzdir. Ona görə də, bütün vətəndaşlarımız məsuliyyətli davranmalı, "Evdə qal" prinsipinə əməl ounmaqla digər insanların da bu təhlükədən yayınmasına nail olmalıyıq. Bu gün dövlət lazımi tədbir gördüyü bir anda, əhali də təmkinli olmalı, xüsusi karantin rejiminə əməl etməlidir. Çünki indiki situasiya təkcə dövlət orqanları qarşısında deyil, hər bir vətəndaş qarşısında ciddi məsuliyyət müəyyənləşdirir. Anlamaq lazımdır ki, koronavirusla bağlı situasiya hökumətin tam nəzarətindədir və bütün atılan addımlar Azərbaycan vətəndaşlarının sağlamlığı və təhlükəsizliyi üçündür!

Dövlət başçımız İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva çıxışlarında da dəfələrlə bildirib ki, hər bir vətəndaş xüsusi karantin rejiminə əməl etməli, məsuliyyətli olmalı, öz şəxsi gigiyenasına fikir verməlidir.

**"Əgər kimsə xalqımıza, dövlətimizə düşmənçilik edirsə, onun bir adı var - düşmən. Hər kəs bunları belə də çağırmalıdır"**

Lakin təəsüf doğuran odur ki, bu gün özünü "müxalifətçiyəm" deyən riyakar, satqın və xalqın düşməni olan elə bu viruslar öz çirkin əməllərindən əl çəkməyərək dövlətin apardığı düşünülmüş uğurlu işlərə ləkə yağdırmaqla, həqiqətən də xalqa düşmən olduqlarını nümayiş etdirirlər. Lakin onların söylədikləri böhtanlar xalqımız tərəfindən qəbul edilmir və dövlət başçısına ünvanlanan yüzlərlə məktublar - öz liderinə inam və dəstəyin göstəricisidir. Atalar demiş: "Elin gözü tərəzidir". Kimin kim olduğu el gözündə daha yaxşı görünür. Kimin nə deməsi və necə qiymətləndirməsi də bu tərəzini poza bilməz.

Ancaq Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın əhalinin pandemiyadan qorunması üçün atdıqları addımlar, həyata keçirdikləri siyasət, etdikləri müraciətlər koronavirusun Azərbaycanda yayılmasının qarşısını almaqdadır. Dövlət başçısı koronavirus başlayandan çıxışlarında radikal müxalifətin çirkin niyyətinə də aydınlıq gətirərək, onları xalqa düşmən qüvvə adlandırıb: "Bu düşərgədə cəmləşən insanlar uzun illərdir iqtidara qarşı yox, dövlətimizə, xalqımıza qarşı çirkin mübarizə aparırlar. Onların əsas məqsədi vəziyyəti gərginləşdirməkdir. Ölkəmiz üçün, xalqımız üçün nə qədər pisdirsə, onlar üçün o qədər yaxşıdır. Onların fəaliyyətinin tarixi də bunu göstərir. Biz bu tarixi yaddan çıxarmamışıq..."

Dövlət başçısı bildirib ki, bu çirkin niyyətli radikal müxalifət xalqın düşmənidir ki, ölənlərin sayının artmasını arzulayırlar, xəstələrin sayının artmasını istəyirlər, sevinirlər ki, insanlar vəfat edir. Dövlət başçısı bununla bağlı demişdir: "Yəni, bu, iqtidara qarşı deyil, dövlətə qarşı düşmənçilikdir. Mən hər şeyi öz adı ilə çağırıram. Əgər kimsə xalqımıza, dövlətimizə düşmənçilik edirsə, onun bir adı var - düşmən. Hər kəs bunları belə də çağırmalıdır. Bunların indiki arzuları da gözlərində qalacaq. Sözüm onda deyil, sözüm ondadır ki, siyasi islahatlar bu gün tam yeni bir konfiqurasiya yaradır. Əminəm ki, marginal qruplaşmaya yeni konfiqurasiyada yer yoxdur və olmamalıdır. Azərbaycan xalqı onları 27 il bundan əvvəl tarixin zibilxanasına atıbdır".

Bir sözlə, bu gün bu uğurlu siyasətə qara yaxmağa çalışan, yalan və manipuliyasiyalarla insanların fikirlərini dəyişdirməyə can atan məkrli xarici qüvvələri və nüfuzdan düşmüş radikal müxalifətin anti-Azərbaycan təbliğatı mənasız və əsassızdır. Çünki bütün bunları xalqımız görür və öz Prezidentinin yanındadır. Məhz buna görə son günlərdə Prezidentin saytında oxuya biləcəyimiz məktublarda insanlar böyük səmimiyyətlə və ürəkdən gələn sözlərlə dövlətin həqiqətən xalqla birlikdə olduğunu deyir. Və "Biz birlikdə güclüyük" deyə bəyan edən Azərbaycan Prezidentin tarixi xidmətlərini qədirbilən xalqımız nə unudacaq, nə də əlahəzrət zaman. Çünki Azərbaycan Prezidentinin fəaliyyətinin əsas qayəsi xalqa və dövlətə sədaqətli, layiqli xidmət prinsipi üzərində qurulmuşdur.

***KAMİL MİRZƏYEV,***
***YAP Biləsuvar rayon təşkilatının sədri***



# Ramiz Şabanov: "Bu, Azərbaycan Prezidentinin diplomatik qələbəsidir"

"Bu gün bütün sahələrdə olduğu kimi, koronavirusla mübarizə tədbirlərində də ölkəmiz dünyada özünəməxsus imic formalaşdırıb - Azərbaycan modeli. Bu reallıqdır. Çünki Azərbaycanın unikal təcrübəsi dünya tərəfindən qəbul edilir, bəyənilir. Həmçinin, reallaşdırılan sosial-iqtisadi dəstək proqramları, genişmiqyaslı antiböhran tədbirlər də beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirilir". Bu fikirləri YAP Tərtər rayon təşkilatının sədri Ramiz Şabanov SİA-ya açıqlamasında bildirib. R.Şabanov onu da vurğulayıb ki, Azərbaycan artıq beynəlxalq aləmdə inkişaf, tərəqqi, yüksəliş simvoluna çevrilir: "Bütün dünyanın etiraf etdiyi bu reallıq Prezident İlham Əliyevin fəaliyyətinə verilən haqlı və real qiymətdir. Xüsusilə, Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının sədri kimi təşəbbüsü ilə 2020-ci il mayın 4-də Qoşulmama Hərəkatının Təmas Qrupunun COVID-19 pandemiyasına həsr edilmiş onlayn Zirvə Görüşü zamanın həmrəylik çağırışı olmaqla yanaşı, həm də ilk növbədə dövlət başçısının dünyada böyük nüfuza malik lider olmasının göstəricisi olduğunu göstərdi. Bir məqamı da vurğulamaq istəyirəm ki, Qoşulmama Hərəkatının Bakıda keçirilən XVIII Zirvə görüşündə təşkilata sədrliyi öz üzərinə götürən zaman dövlətimizin başçısı bəyan etdi ki, Azərbaycan beynəlxalq arenada üzv ölkələrin maraqlarının müdafiə edilməsi üçün əməli addımlar atacaq, həmrəyliyin gücləndirilməsini və qarşılıqlı dəstəyi rəhbər tutacaq. Göründüyü kimi, COVID-19 pandemiyasına həsr edilmiş onlayn Zirvə görüşü də bir daha göstərdi ki, Azərbaycan Prezidentinin sözü ilə əməli birdir. Zirvə görüşündə ölkə başçısı Azərbaycanın koronavirusla mübarizə modelini dünyaya təqdim edərkən faciənin qarşısının alınması üçün həmçinin, dünyaya yol göstərdi".

Rayon təşkilatının sədri R.Şabanov onu da bildirib ki, dövlətimizin başçısının apardığı düşünülmüş uğurlu siyasəti, həmçinin dövlətləri və millətləri birləşdirən siyasət olduğunun və bu gün 130 ölkənin dövlət başçımızın təşəbbüsünün dəstəklənməsi dünyada Azərbaycana olan inamın və etimadın göstəricisidir: "Prezident İlham Əliyev Qoşulmama Hərəkatının videokonfrans Zirvə görüşündə çıxışı zamanı qlobal həmrəyliyin nümunəsi kimi pandemiya ilə mübarizə məqsədilə BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sessiyasının keçirilməsi təklifi ilə çıxış etdi. Və bu günlərdə Azərbaycan Prezidentinin bu təklifi Nyu-Yorkda Qoşulmama Hərəkatının 120 üzv ölkələri arasında yekdilliklə razılaşdırılmış və bunun ardınca hazırda Hərəkatın sədri olan Prezident İlham Əliyev Qoşulmama Hərəkatı ölkələri adından BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sessiyasının keçirilməsi təklifi ilə Baş katib Antonio Quterreşə müraciət ünvanlamışdır. Azərbaycan Prezidentinin bu təklifindən keçən dövr ərzində rəsmi məlumatlara görə, 130-a qədər ölkə təşəbbüsə dəstək verib. Bu isə, ölkəmizə, eləcə də dövlətimizin başçısına olan böyük etimadın və hörmətin növbəti göstəricisidir.

Bu təşəbbüsə qarşı çıxış edən yeganə dövlət Ermənistan olub. Bütün dünya COVID-19-a qarşı mübarizədə qlobal həmrəyliyin vacibliyini vurğuladığı halda, Ermənistan qlobal xarakter daşıyan bu təşəbbüsə qarşı çıxış etməklə BMT sistemində və dünya dövlətləri arasında özünün bir daha təcavüzkar, işğalçı ölkə olduğunu göstərdi".

R.Şabanov onu da vurğulayıb ki, dövlət başçımızın hər bir uğurlu imzası, diplomatik xarici siyasəti xalqımıza qurur hissi aşılayır: "Tərtərlilər də bu sevinci yaşadı. Tərtər rayonu cəbhə bölgəsi olduğu üçün Ermənistanın işğalçı və faşist xislətoli olduğunun dəfələrlə şahidi oluruq. Və Azərbaycan Prezidenti İlham Əliyevin bu uğuruna dünya xəritəsində olmayan bir xalqın, rəzil, saxtakar, dövlət başçımızın dediyi kimi oğru, faşist Paşinyan kimilərin razı olub olmamasının əhəmiyyəti də deyil. Gözəl bir deyim var: "Tarixi həqiqətləri inkar etdikdə, reallıq hissi itirilir". Bu həqiqətən də belədir. Bu gün Ermənistanın baş naziri Nikol Paşinyan başqalarına qarşı əsassız ittihamlarla çıxış etməklə, yalan və əsassız iddialar irəli sürməyə vərdiş etsə də Azərbaycan Prezidnti İlham Əliyevə yalan danışdıqda bədəlin ödəməli olur. Xüsusilə də, son vaxtlar Paşinyan hökumətinə qarşı bir-birinin ardınca Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən vurulan zərbələr, onun ardınca iyunun 18-də Şərq Tərəfdaşlığı ölkələrin keçirdiyi Sammitdə dövlət başçımız tərəfindən rəzil vəziyyətə düşməsi tərtərlilərin sevincinə səbəb olub. Belə zərbələrin dəfələrlə şahidi olmuşuq. Ən əsas isə dövlət başçımızın Ermənistanın faşist baş nazirinin dediyinin əksi olaraq, "Dağlıq Qarabağ Ermənistan deyil, Dağlıq Qarabağ Azərbaycandır və bütün dünya bunu belə tanıyır" deməklə Paşinyana növbəti dəfə tarix dərsi keçməklə bütün dünyaya sübut etdi ki, artıq erməni saxtakarlığı keçmir.

Prezident İlham Əliyev bir daha beynəlxalq aləmə sübut etdi ki, Azərbaycan dövləti ərazicə kiçik, əhalisinin sayına görə az olsa da, sözün əsl mənasında güclü dövlət və böyük xalqdır. Və Nə qədər ki, Ermənistan Azərbaycanın işağal altındakı torpaqlarını azad etməyəcək, bir o qədər ağır iqtisadi, siyasi məhrumiyyətlərə və məşəqqətlərə düçar olacaq".

***RƏFİQƏ HÜSEYNOVA***



## "Yalnız həmrəylik nümayiş etdirməklə pandemiyaya qarşı qalib gələ bilərik"

"Dünyanı bürüyən koronavirus infeksiyası hələ də sovuşmayıb və bəşəriyyəti təhdid etməkdə davam edir. Virusa qalib gəlməyin isə məhz dövlət və vətəndaş həmrəyliyindən asılı olduğunu dünyanın bir çox ölkələrində rast gəlinən acı həqiqətlər də təsdiqlədi. Buna görədir ki, koronavirusa zamanında ciddi yanaşmayan ölkələrdə sonradan görülən tədbirlər, alınan qadağa qərarları elə də səmərəli olmadı və bu təsir gücünün işlək olmamasında vətəndaşların da həmin qaydalara əməl etməməsinin böyük rolu oldu". SİA-nın verdiyi məlumata görə, bu fikirləri Milli Məclisin deputatı Cavid Osmanov deyib. C.Osmanov bildirib ki, bəşəriyyət yalnız bir olaraq, həmrəylik nümayiş etdirməklə pandemiyaya qarşı qalib gələ bilər və Azərbaycanda aparılan işlər də buna bir nümunədir. "Məhz bu baxımdan Qoşulmama Hərəkatının 40-dan çox üzv ölkənin dövlət və hökumət başçılarının, həmçinin aparıcı beynəlxalq təşkilatların rəhbərlərinin Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsünə dəstək verməsi və onların təşkilatın Təmas Qrupunun Zirvə görüşündə iştirakları, eyni zamanda, ölkəmizin və onun liderinin nüfuzunun nə qədər yüksək olduğunu bir daha göstərdi. Artıq bütün dünya görür və etiraf edir ki, Azərbaycan koronavirus pandemiyasına qarşı mübarizədə fəal rol oynayır. Ölkəmizdə aparılan işlərin hər birinə bilavasitə Prezident İlham Əliyev şəxsən nəzarət edir. O cümlədən Birinci vitse-prezident xanım Mehriban Əliyevanın bu işlərdə göstərdiyi dəstək əvəzsizdir. Bu baxımdan Azərbaycanda aparılan işlər digər ölkələrə nümunə olaraq göstərilir"-deyə, deputat qeyd edib.

# Ağdərənin işğalından 27 il ötür



Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti nəticəsində, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağ və ətrafındakı yeddi rayon Ermənistan tərəfindən işğal edilib, həmin ərazilərdə etnik təmizləmə siyasəti aparılıb, bir milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Beynəlxalq birlik və təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır və münaqişənin beynəlxalq hüquq normalarına uyğun, ədalətli həllinin tərəfdarıdır. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının məlum 4 qətnaməsi erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb etdiyi halda, Ermənistan buna məhəl qoymur. Eyni zamanda, Qoşulmama Hərəkatı, ATƏT, Avropa Şurası Parlament Assambleyası və digər təşkilatlar da oxşar qərar və qətnamələr qəbul ediblər.

İyulun 7-si Azərbaycanın Tərtər rayonunun tərkibinə daxil olan Ağdərənin və ətraf kəndlərin işğalından 27 il ötür. Ağdərə rayonu, Dağlıq Qarabağdakı bir çox ərazilər kimi, Qarabağ müharibəsinin başlanğıcında erməni silahlı qüvvələrinin nəzarəti altına keçib. 1992-ci ildə Azərbaycan Ordusunun hücumu nəticəsində Ağdərə rayonu ərazisinin bir çox hissəsi erməni işğalçılarından azad edilir. Bir il boyunca Ağdərə şəhəri ətrafındakı kəndlərdə və yüksəkliklərdə aramsız döyüşlər gedib. 1993-cü il 7 iyul tarixində Ağdərə şəhərini və rayonun bir çox kəndlərini ermənilər yenidən işğal edir. Hal-hazırda Ağdərə rayonunun bir neçə kəndi Azərbaycanın nəzarətində olsa da, Ağdərə şəhəri də daxil olmaqla, bir çox əraziləri ermənilərin nəzarəti altındadır.

Qeyd edək ki, 1989-cu ildə SSRİ tərəfindən aparılmış əhalinin son siyahıya alınmasına görə, rayonun 14 kəndində 14 min azərbaycanlı əhali yaşayırdı. Bu göstərici üzrə Ağdərə azərbaycanlı əhalinin sayına görə, Şuşadan sonra Dağlıq Qarabağ Muxtar Vilayətinin tərkibinə daxil olan beş inzibati rayondan biri idi. Ağdərənin köklü Azərbaycan əhalisinin tam etnik təmizləməsi ilə müşayiət olunan işğalı nəticəsində, Azərbaycan xalqına məxsus mədəni irs talan edilib və infrastrukturu dağıdılıb. Azərbaycanın erməni hərbi birləşmələri tərəfindən işğal olunmuş ərazilərində törədilmiş vandalizm əməllərinin nəticəsi olaraq, evlər talan edilərək sökülüb, yandırılıb, tarixi abidələr, xüsusilə, qəbiristanlıqlar dağıdılıb. Azərbaycanın işğal olunmuş ərazilərində erməni işğalçılarının özbaşınalığı, tarix və mədəniyyət abidələrimizin dağıdılması və qəsdən korlanması "Silahlı münaqişə baş verdikdə, mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyasına, "Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyasına, "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" YUNESKO-nun 1972-ci il Konvensiyasına ziddir. Bu, faktdır ki, Qarabağda yerləşən abidələr də ermənilər tərəfindən kütləvi surətdə dağıdılıb və erməniləşdirilib.

Ağdərə ərazisində olan memarlıq abidələrindən Vəngli kəndindəki məşhur Gəncəsər Alban məbədi, Xanabert qalası, Herabert qəsəbəsində Hermuk qalası, kilsə, Kolatağ kəndində müqəddəs İako məbədi var idi. Talış kəndi yaxınlığında, Urek məbədi (XII əsr), Tərtər çayının yuxarı axarında məbəd (XIII əsr), Qasapert kəndində Hatəm Məlik qalası, Madagiz kəndində Yegiş Arakel məbədi (XII əsr) və qədim körpülər dağıdılıb.

İşğal edilmiş ərazidə 75059 hektar meşə sahələri var idi ki, bu da ərazinin 44%-ni təşkil edirdi. Ağdərə rayonunda, Tərtər çayı vadisində Şərq çinarı meşəliyi xüsusi olaraq qorunurdu. Ağdərə rayonunda zəngin faydalı qazıntı yataqları var idi: Qızılbulaq qazıntı yatağında 13,6 vahid sənaye ehtiyatı olan qızıl və 47,9 milyon ton mis, Mehmana yatağında sənaye ehtiyatları 37,3 milyon ton olan qurğuşun, 40,4 milyon ton olan sink, 100 milyon ton olan Dəmirli mis yatağı, Canyataq-Gülyataq qızıl yatağı vardı. Onu da qeyd edək ki, işğal olunmuş ərazilərimizin qızıl yataqları, bir qayda olaraq, ABŞ-ın, Kanadanın, İsveçrənin və Fransanın iş adamları tərəfindən talan olunur.

Ermənistan və işğal olunmuş ərazilərimizdə yaradılmış qondarma rejim, ötən 27 il ərzində, Ağdərənin sərvətlərinin talan edilməsi üçün qeyri-qanuni əməlləri həyata keçirir.

Azərbaycanın işğal altında olan torpaqlarının, azad ediləcəyi gün yaxındadır. Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycan heç vaxt işğalla barışmayacaq və nəyin bahasına olursa-olsun, öz doğma torpaqlarına qayıdacaq və ölkəmizin ərazi bütövlüyünü bərpa edəcək. Bu gün böyük gücə malik olan Azərbaycan Ordusu qarşıda duran bütün vəzifələri həll etməyə qadir olan ordudur və belə gücə malik nizami ordu işğal altındakı torpaqlarımızı erməni təcavüzkarlarından təmizləməyə və üçrəngli bayrağımızı Qarabağda dalğalandırmağa qadirdir.

***Zümrüd BAYRAMOVA***

# "Ölkəmiz yeni dövrə qədəm qoymaqdadır"



"Hər bir dövlətin inkişafı üçün onun dövlət orqanlarının, institutlarının dayanıqlı və sistemli idarəçiliyi ən vacib amillərdəndir. Son dövrlərdə ölkə daxilində mərkəzi və regional icra orqanlarında aparılan kadr islahatları ona dəlalət edir ki, ölkəmiz yeni epoxaya qədəm qoymaqdadır. İcra hakimiyyətlərindən tutmuş Mədəniyyət nazirliyi və ən son Xarici işlər nazirliyində aparılan yoxlamalar və həbslər hər kəs üçün bir çağırış olmalıdır". Bunu SİA-ya politoloq Zaur Məmmədov deyib.

Politoloqun sözlərinə görə, Prezidentin apardığı siyasətə xələl gətirən, dövlətin və cəmiyyətin təhlükəsizliyinə və inkişafına mane olan kimliyindən asılı olmayaraq hər bir şəxs mütləq şəkildə cəzalanacaqlar: "XİN ətrafında baş verənlərə erməni mediasının yanaşması bir daha sübut edir ki, bu tədbirlər artıq nəticə verməkdədir. Azərbaycanın xarici siyasətinə, informasiya müharibəsinə, siyasi imicinə cavabdeh olan qurumun istər mərkəzi, istərsə də müxtəlif ölkələrdəki səfirliklərinin fəaliyyəti bir sıra suallar doğurmaqda idi. Eyni zamanda, əməliyyatın səbəbkarı olan XIN-nin yüksək çinli nümayəndələrinin illərdir ki, orada rüşvətin ən yüksək həddini özlərinə bayraq etmələri bir çoxlarının gözü qarşısında baş verirdi.

Əmin olun ki, növbədə digər nazirliklərdi. Tezliklə ölkədə bir nəfər belə rüşvətxor, "5-ci kolon", müxtəlif ölkələrə "qulluq edənlər" qalmayacaq. Bu günlərdə bizlərdən daha da sıx həmrəylik tələb olunur. Prezidentin ətrafında həmrəy şəkildə dayanaraq bütün bu proseslərə dəstək vermək hər bir vətəndaşın əsas vəzifəsi olmalıdır".

# Bu gün Bakıda 38 dərəcə isti olacaq



Azərbaycanda iyulun 7-də gözlənilən hava şəraiti açıqlanıb. Milli Hidrometeorologiya Xidmətindən SİA-ya verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın yağmursuz keçəcəyi gözlənilir. Cənub küləyi əsəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 22-24, gündüz 34-38, Bakıda gecə 23-25, gündüz 36-38 dərəcə isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 755 mm civə sütunu, nisbi rütubət gecə 60-70, gündüz 40-45 faiz təşkil edəcək. Abşeron çimərliklərində cənub küləyi əsəcək. Dəniz suyunun temperaturu Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulbada 22-23, Türkan, Hövsan, Sahil, Şıxda isə 24-25 dərəcə isti olacaq.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin axşam saatlarında bəzi dağlıq ərazilərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı, dolu düşəcəyi gözlənilir. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-25, gündüz 35-39, dağlarda gecə 15-19, gündüz 23-28 dərəcə isti olacaq. Tibbi-meteoroloji proqnoza gəlincə, iyulun 7-də Abşeron yarımadasında gündüz saatlarında isti temperatur diskomfortu gözlənilir ki, bu da meteohəssas insanlar üçün əsasən əlverişsizdir.

# Polis Hövsanda yas mərasimi verən 10 nəfəri saxladı



Bakıda yas mərasimi təşkil etmək istəyən səxslər polislər tərəfindən saxlanılıb. Daxili İşlər Nazirliyindən SİA-ya verilən məlumata görə, iyulun 3-də Suraxanı rayonu Ho?vsan qəsəbəsində M.Mustafayev adlı şəxsin dəfn mərasimində xu?susi karantin rejimi qaydalarının və sanitar-epidemioloji s?ərtlərin pozulması halı qeydə alınmışdı. Suraxanı Rayon Polis İdarəsi 30-cu Polis Şöbəsinin əməkdaşlarının kec?irdiyi mu?vafiq tədbirlərlə həmin dəfn mərasimindən yayılan go?ru?ntu?lərdə əks olunan s?əxslər polis şöbəsinə dəvət olunaraq barələrində inzibati tənbeh tədbiri tətbiq olunmuş və onlar I?nzibati Xətalar Məcəlləsinə uyg?un olaraq, məsuliyyətə cəlb olunublar.

Buna baxmayaraq bu gün Hövsan qəsəbəsində sanitar-karantin rejiminin tələblərinə zidd olaraq yenidən bir qrup qəsəbə sakini M.Mustafayev adlı şəxsin "3" mərasimini təşkil etməyə cəhd göstərmişdir. Bu cəhdin də qarşısı 30-cu Polis Şöbəsinin əməkdaşları tərəfindən alınıb. Karantinn qaydarını pozaraq yas mərasimi təşkil etmək istəyən 10 nəfər saxlanılaraq polis şöbəsinə gətirilib. Onlar barəsində də İnzibati Xətalar Məcəlləsinə uyg?un olaraq ciddi intizam tədbiri görülüb.

# 302 avtomobil postlardan geri qaytarılıb




Baş Dövlət Yol Polisi İdarəsi (BDYPİ) 05.07.2020-ci il tarixdə xüsusi karantin rejiminin pozulmasına görə inzibati məsuliyyətə cəlb edilmiş hərəkət iştirakçılarının sayı və görülən tədbirlər barədə statistikanə açıqlayıb.

BDYPİ-dən verilən məlumata görə, koronavirus (COVİD-19) infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə Bakı, Cəlilabad, Gəncə, Goranboy, Göygöl, Lənkəran, Masallı, Mingəçevir, Sumqayıt, Yevlax şəhərlərində və Abşeron, Bərdə, Xaçmaz, Samux, Siyəzən və Şəki rayonları ərazisində tətbiq edilmiş sərtləşdirilmiş xüsusi karantin rejiminin pozulmasına görə 05.07.2020-ci il saat 00:00-dan 06.07.2020-ci il 00:00-dək olan müddət ərzində nəqliyyat vasitələri ilə hərəkətdə olan 1683 nəfər Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 211.1-ci, sərnişindaşımada istifadə olunan taksi və avtobuslarda tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə edilmədiyinə görə isə həmin Məcəllənin 211.2-ci maddəsi ilə 215 nəfər olmaqla ümumilikdə 1898 hərəkət iştirakçısı inzibati məsuliyyətə cəlb edilib. Qeyd olunan müddət ərzində Bakı-Quba yolunun 52-ci km-də yerləşən karantin keçid postundan 27-i rayon, 45-i paytaxt istiqamətinə olmaqla 72, Bakı-Şamaxı-Yevlax yolunun 31-ci km-də yerləşən postdan 60-ı rayon, 56-ı paytaxt istiqamətinə olmaqla 116, Bakı-Qazax-Gürcüstan yolunun 65-ci km-də yerləşən keçid postundan 207-i rayon, 95-i paytaxt istiqamətinə olmaqla 302 nəqliyyat vasitəsi geri qaytarılıb, ümumilikdə 490 nəqliyyat vasitəsi ilə müvafiq icazə olmadan postlardan keçmək cəhdinin qarşısı alınıb.

# Bakıda marketlərdə polis postları yaradıldı

Bakıda marketlərdə polsi nəzarəti gücləndirilib. SİA-nın məlumatına görə, ərzaq mağazalarında polis postları quraşdırılıb. Polis əməkdaşları ticarət mərkəzlərinə müştərilərin qoruyucu maskasız daxil olmasını qadağan edib. Həmçinin mağazaya daxil olan müştərinin ilk öncə hərarəti ölçülür, hərarəti olan müştəri mağazaya buraxılmır. Proses paytaxtın bütün ərzaq mağazalarında və alış-veriş yerlərində həyata keçirilir. Qeyd edək ki, ötən gün ərzində respublika üzrə xüsusi karantin rejimi qaydalarını pozduqlarına görə 4 nəfər inzibati həbs edilib, 2294 nəfər inzibati cərimə olunub ki, onlardan da 548 nəfəri tibbi maskadan istifadə etməyənlərdir.

# Paşinyanın sifarişli və fokus-mokuslu "reytinq soğrusu"

Samvel Farmanyan: **"Nikol Paşinyanın sifarişi ilə və birbaşa özü üçün keçirilən sorğuda elə bir cənnət mənzərəsi yaradılıb ki, ona hətta Şimali Koreyanın lideri Kim Çen In da həsəd apara bilər"**



Nikol Paşinyanın real reytinqi 11-13%-i təşkil edir. SİA xəbər verir ki, bu barədə özünün Facebook səhifəsində politoloq və ictimai-siyasi xadim Samvel Farmanyan yazıb. Onun sözlərinə görə, baş nazirin ölkəni belə bir ağır vəziyyətə gəlməsində xüsusi xidmətləri var. "Sosiologiya Nikol Paşinyanın yalan imperiyasında fəxri yer tutmaqdadır. Koronavirusla mübarizə qarmaqarışıqlığında rüsvayçı məğlubiyyət, sosial-iqtisadi kollaps, Konstitusiya məhkəməsi ətrafında nümayiş etdirilən meymunluq, KİV-lərə qarşı polisin inzibati təzyiqləri və digər hadisələr bu olayların tərkib hissəsidir", yazan erməni siyasisi qeyd edir ki, bu günlərdə daha bir vacib hadisə yaşanıb. SİTAT: "Beləliklə, MPG LLC-nin "Gallup International Association" assosiasiyasının Ermənistandakı direktoru Aram Navasardyan tərəfindən təşkil olunmuş mətbuat konfransında o, erməni xalqına sonuncu sorğunun nəticələrini təqdim edib. Başlayaq metodoloji sosial sorğudan. Sən demə, sorğu 10-27 iyun tarixləri aralığında keçirilibmiş. Həmçinin, sorğu telefon vasitəsi ilə keçirilib və burada respublikanın 1200 vətəndaşı iştirak edib. Nikol Paşinyanın sifarişi ilə və birbaşa özü üçün keçirilən sorğuda elə bir cənnət mənzərəsi yaradılıb ki, ona hətta Şimali Koreyanın lideri Kim Çen In da həsəd apara bilər. Lakin ona keçənə qədər Nikol Paşinyanın yalan ipmeriyası ətrafındakı sosioloji mərtəbə tikməsinə dair kiçik məsələyə diqqət yetirək..."

Erməni politoloqu: **"Əhalimizin minimum 60-65%-i belə cavab veriblər: "Qardaş, götür öz Nikolunu və..."**

Farmanyan qeyd edir ki, KİV-in, nə də Nikol Paşinyanın iştirak etmədiyi fokus-mokus oyununda əsas məsələlər göstərilməyib. SİTAT: "Onlar telefonla keçirilən sorğudan nə qədər vətəndaşın imtina etdiyini və baş nazirə, hökumətə etimad göstəririb-göstərmədiklərini demirlər. Ona görə də bunu mən etməli olacağam. Beləliklə, Paşinyanın polismeystrliyi ilə keçirilən sorğulardan minimum 60-65% vətəndaş imtina edib. Açıq telefon rabitəsində keçirilən sorğuları isə daha çox vətəndaş rədd edib. Bu nəyi göstərir? Nəyə görə Niklol paşinyanın tərəfdarı ya da əqidədaşı bu barədə hətta telefonla olsa belə danışmağı istəməmişdir? Bəli, bu mümkün deyil. Belə çıxır ki, əhalimizin minimum 60-65%-i belə cavab veriblər: "Qardaş, götür öz Nikolunu və...". Yerdə qalır 35-40%-i ki, onlar da bu "əsrin sorğusunda" iştirak ediblər".

**Bu sosioloji fokus-mokusun nəticələri isə, sadəcə şok diğurur. Onlara görə, əhalimizin 87,6%-i Nikol Paşinyana etimad göstərirmiş..."**

Farmanyan: "Nikol paşinyanın reytinqi uzağı 11-13%-dir və bunün özü göstərir ki, ölkəmizin siyasi təhlükəsizlik sistemi narahatedicidir"

Farmanyan qeyd edir ki, əslində reallıq başqa cürdür: "Nikol paşinyanın reytinqi uzağı 11-13%-dir və bunün özü göstərir ki, ölkəmizin siyasi təhlükəsizlik sistemi narahatedicidir... Nikol ictimaiyyətin böyük hissəsinin etimadını itirib və bu da ölkədə yeni siyasi vəziyyətə səbəb olub. Bu vəziyyət məntiqi araşdırma tələb edir və gecikir..."

Erməni politoloqu sonda yazır ki, Nikol Paşinyanın - fokus-mokuslu sosial sorğusunun dəyərsiz sifarişçisinin əsl qiymətinin verilməsi vaxtı çatıb.

*Rövşən RƏSULOV*

# "Paşinyan demokrat donunda olan savadsız bir diktatordur"



"Paşinyanla Ermənistan Konstitusiya məhkəməsi arasında qarşıdurma çoxdan var. Çünki Ermənistanda yeganə orqandır ki, Paşinyanın provokasiyalarına uymur. Daha doğrusu Paşinyanın dediklərini həyata keçirmir və çalşır ki, az da olsa konstitutsiyanı qorusun. Bu da özünü demokrat kimi cəmiyyətə təqdim edən Paşinyana sərf etmir". Bunu SİA-ya açıqlamasında politoloq Cümşüd Nuriyev deyib. Politoloqun sözlərinə görə, Paşinyan çalışır ki, bir növ Konstitusiya məhkəməsini oyundan çıxarsın: "Ona görə də, bütün qanunsuzluqlara əl atır. Ermənistandakı qarşıdurmanın da əsas səbəbi məhz hal-hazırda Paşinyanla hakimiyyət orqanları arasındakı gərginliklərdən irəli gələn bir məsələdir. Bildiyiniz kimi Ermənistanda həm Köçəryanla bağlı Rusiyanın ayrı bir mövqeyi var. Baxmayaraq ki, o, müəyyən girov əsasında azadlığa buraxılıb. Amma Paşinyanın Sarkisyana qarşı vəziyyəti kifayət qədər gərgindir. Bütün bu istefaların arxasında hal-hazırda Sarukyan-Paşinyan qarşıdurması dayanır". C.Nuriyev vurğulayıb ki, Paşinyan hazırda Rusiya üçün də qeyri-adekvat bir insandır: "Başqa dildə desək Rusiya onu qəbul etmək istəmir. Paşinyan fikirləşdi ki, həm ABŞ-ı, həm də Rusiyanı aldada biləcək. Özünü çox ağıllı hesab edir və iki böyük dövlətlə guya ki, siyasi oyun oynayır. Amma hər dəfə həm özünü, həm də Ermənistanı daha da batırır. Ona görə də Ermənistanda gedən oyunların hamısı Paşinyanın tək diktator olmasına xidmət edən oyunlardır. Paşinyan demokrat donunda olan savadsız bir diktatordur. Siyasi cəhətdən yetkin olmayan bir şəxsdir. Ona görə də məhz Ermənistanda bu vəziyyət yaranıb".

*Aysel Məmmədova*

# Erməni mənəviyyatsızlığı və geosiyasi əxlaqsızlıq cəhdləri

***"Müdafiə nazirinin yanaşmasına görə, 102-ci Rusiya hərbi bazasının Ermənistandan çıxarılması ilə bağlı bəyanatlar və yayımlamalar mənəviyyatın, geosiyasi və hərbi-siyasi yetkinliyin olmaması, əxlaqsızlıq cəhdləridir." Bu fikirlər müdafiə naziri David Tonoyanın, sözçüsü Şuşan Stepanyana məxsusdur.***



Nazirin reaksiyası kifayət qədər sərt olub. Bu, sadəcə hərbi baza məsələsi deyil. Bu məsələnin nəzərdən keçirildiyi ümumi siyasi kontekstdən xəbər verir. Müxtəlif qruplar vaxtaşırı bazanın çıxarılması barədə danışırdılar, lakin bu məsələnin Ermənistanın siyasi gündəliyində aktual sayılmadığı göz qabağındadır. Buna görə sual yaranır, niyə müəyyən qruplar bu məsələnin Ermənistanda hazırlandığı və ya ciddi şəkildə müzakirə edildiyini düşünərək, şəxslərin müraciətlərinə istinad etməlidirlər? "Çiçəklənən Ermənistan"ın lideri Qaqik Sarukyan verdiyi açıqlamada bazaya istinad edərək, Ermənistanda "anti-Rusiya təxribatlarına" yol verməyəcəyini bildirib.

Nə baş verir? Ya Ermənistandakı bəzi qüvvələr Rusiyanın köməyini almağa çalışırlar, ya da bəziləri "anti-Rusiya" əhval-ruhiyyəsinin kəskinləşməsindən guya narahat olduqları təəssüratları yaradır və özlərini Rusiyadakı hər hansı bir siyasi qrupa daha bahalı satmaq üçün öz "sinələrini Rusiyanı qoruyan" kimi qabağa verərək, qəhrəman kimi göstərirlər.

Ola bilsin bəzi rus qrupları öz problemlərini Ermənistandakı daxili aktyorlardan istifadə etməklə və onların köməyi ilə "Rusiyaya qarşı kəskinləşmə" ilə ilhamlandırmaqla həll etməyə çalışırlar ki, sonradan Ermənistanın siyasi rəhbərliyinə öz maraqlarını təmin etmək üçün tələblər irəli sürsünlər.

Bu ölkədə baş verənlər və öncə sadalananlar Ermənistana məxsus mətbuat səhifələrində də açıq-aşkar etiraf olunur. Hazırda Ermənistana məxsus mətbuat səhifələri Rusiya əleyhinə yaranan, ola bilsin yaradılan əhval-ruhiyyənin səbəblərini araşdırmağa çalışırlar. Bu ölkənin mediasında müxtəlif fikirlər səsləndirilir və hətta Rusiyadan qorxu, təhlükə həyecanı ilə yanaşı əksər qüvvələrin böyük rus qardaşlarına yaltaqlıqları da etiraf olunur.

Heç şübhəsiz ki, Ermənistan Rusiya üçün yalnız regiondakı mövqeyi, həm də Rusiyanın geosiyasi rolu baxımından əhəmiyyətə malik ola bilər. Bu mənada yalnız Rusiya-Ermənistan münasibətlərinin mahiyyəti Rusiyanın və onun hakimiyyətinin daxili həyatı üçün vacibdir sayıla. Bu baxımdan, Ermənistandakı dəyişikliklər həm də Rusiyanın hakim dairələri üçün bir göstəriciyə çevrilər. Özü də onlar üçün çox da xoş olmayan göstəricilərə. Məhz elə bu baxımdan cəsarətlə demək olar ki, bu kontekstdə Ermənistan-Rusiya münasibətlərinin mürəkkəb bir transformasiya prosesi gedir.

Ermənistan təhlükəsizlik və hərbi-siyasi problemlərlə bağlı özü üçün müxtəlif vacib məsələləri qaldırır. Rusiya-Türkiyə müqavilələri heç şübhəsiz ki, ermənilərı əməlli-başlı narahat edir. Əvvəla ona görə narahat edir ki, Türkiyəni Ermənistanın gözü götürmür və ruslarla türklərin yaxınlaşması onların yuxularını qarışdırır. Digər tərəfdən ermənilər, Rusiyanın Türkiyə ilə münasibətləri yaxşılaşdırdıqdan, yaxınlaşdırdıqdan sonra Ermənistanın, ermənilərin ofsaytda qalacaqlarından narahatdırlar. Başqa tərəfdən isə, Rusiyanın Türkiyəyə meyilli olması həm ona görə ermənilərin cuxasına birə salıb ki, ermənilər torpaqlarını işğal etdikləri Azərbaycanın Türkiyə ilə qardaşlığından, birliyindən onsuz da narahat idilər və indi də bu gücə, bu birliyə bir də Rusiyanın qatılması erməni mövcudluğunun bəlkə də sonu deməkdir. Ən azından sonun başlanğıcı ola bilər.

İrəvan müttəfiqlərlə münasibətlərinə onsuz da artıq şübhə ilə yanaşır. Bunun üçün əsaslı səbəblər də az deyil. Bu səbəblər saymaqla nə bitəndir, nə də qurtaran. İşğalçı ölkədəki qeyri-stabil durumdan, iqtisadi tənəzzüldən, bu ölkənin regionda və ümumiyyətlə dünya miqyasında tamamilə nüfuzdan düşməsindən, Nikol Paşinyan kimi təcrübəsiz birinin yaratdığı xaosdan, onun acınacaqlı nəticələrindən tutmuş, hərc-mərcliyə qədər hər bir məqam Ermənistanın müttəfiqlərlə münasibətlərinə tutarlı zərbədir. İndi Ermənistanla ən azından özünü müttəfiq kimi göstərən heç bir ölkə, ələlxüsus Rusiya ermənilərlə müttəfiqlikdə maraqlı ola bilməz. Yəni, maraqlı olmaları üçün bircə səbəb belə yoxdur. Üstəlik, indi ati-Rusiya əhval-ruhiyyəsi olan-olmaz maraqların üstündən də xətt çəkib. Qərb yönümlü və şər iblisi Sorosun adamı olan Nikol Paşinyanın təsir və təzyiqləri altında olanlardan başqa bütün ermənilər yaxşı bilir və etiraf edirlər ki, Rusiya ilə münasibətlərə xələl gətirmək, hətta xələl gətirəcək bircə hərəkət belə onlara heç sərf edən deyil və bu onlar üçün məhvə aparan yoldur.

Doğrudur, Ermənistanda indi Paşinyan hakimiyyətinə qarşı olanlar, eləcə də bir sıra qüvvələr hakimiyyətlə ədavəti fonunda Rusiyaya meyillidir və özlərinin bu vaxta qədərki "sadiq köpək" rolunu məharətlə oynayırlar. Ən ikrah doğuran məqamlardan biri isə budur ki, bəzi qüvvələr "böyük qardaş" saydıqları ruslara sadəcə yaltaqlanmaq üçün məqam tapıblar. Müxtəlif formalarda təzahür edən bu yaltaqlıq barədə əslində Ermənistan mətbuatı özü də yazır. Qeyd olunur ki, indi ölkədəki bəzi qüvvələr özlərini ruslara sədaqətli göstərməyə çalışmaqla, daha doğrusu yaltaqlanmaqla özlərinə arxa, dayaq qazanmağa çalışırlar. Bax elə bu işğalçı ölkədəki yaltaqlığın, ruslara "sadiq köpək" obrazına girmənin süni ilhamverici səbəbi məhz budur? Bu isə, təbii ki, mənəviyyatın olmaması və geosiyasi yetişməzlikdən danışan müdafiə nazirinin sərt reaksiyasına səbəb olub.

Məsələ burasındadır ki, ruslar üçün erməni siması, daha doğrusu simasızlığı artıq tam şəkildə məlumdur. Çünki, baxmayaraq ki, əslində Ermənistanın əraziyə, qondarma da olsa dövlətə sahib olmaları məhz ruslar, Rusiya səyəsində olub, zaman-zaman ruslar erməni xəyanətlərinin şahidi olublar. Bu, Böyük Vətən Müharibəsində də, onun ardınca da özünü biruzə verib və son zamanlar da özünü Paşinyan komandasının Rusiya əleyhinə fəaliyyətində, eləcə də anti-Rusiya əhval ruhiyyəsində açıq-aşkar göstərir. Belə olan halda bundan sonra ermənilər çətin ki, bir daha rusların etibarını qazana bilələr. Bir sözlə, ermənilərə yalnız yaltaqlıq, ikiüzlülük, mənəviyyatsızlıq və müdafiə nazirinin dediyi kimi, geosiyasi, hərbi-siyasi əxlaqsızlıq cəhdləri qalacaq.

*İnam Hacıyev*

# Evdə qalaq... inanaq - biz bir yerdə güclüyük



***Bəzən həyatda elə hallar mövcud olur ki, həmin amillər bir-birləri ilə bənzərlik, oxşarlıq cəhətləri ilə daha çox nəzərə çarpır və bu cəhətlərin pis tərəfləri də, yaxşı tərəfləri də olur. Lap nağıllarda, əfsanələrdə, hətta real həyatda olduğu kimi. Xeyir və şər. Söz yox ki, şər müəyyən mənada xeyir üzərində üstünlüklər əldə etsə də sonradan, yəni son anda xeyirin qarşısında məğlub olur. Amma təəssüf ki, şər qüvvələr bu dünyada hələ ki, çoxdur və xeyirxahlıq amili ona qarşı mübarizəsini davam etdirir. Ta o vaxta qədər ki, şər xeyirin qarşısında diz çöksün.***

Bu günlərdə sapı özümüzdən olan baltalar - şər qüvvələr yenidən fəallaşıblar. 21-ci əsrin ən böyük bəlası yaşandığı bu günlərdə planetimizdə koronavirus bütün dünyanı cənginə almaqda davam edir. Nə yaş, nə irq, nə ölkə, nə də sərhəd tanıyır. Bu gün dünyanın ən inkişaf etmiş, ən yüksək texnoloji avadanlıqlara, tibb sənayesinə malik ölkələri bu virusun qarşısının alınmasında acizdirlər.

Artıq elə bir vəziyyət yaranıb ki, bu gün hər bir qayda pozuntusu xəstələnmək və öz həyatını, ətrafını risk altına atmaq deməkdir. Hə, çox təəssüf ki, vəziyyət o qədər pis proqnozlara bağlıdır ki, məsuliyyətsiz davranılacağı, qaydalara riayət olunmayacağı təqdirdə daha da pisləşə bilər. Bir məqamı unutmamalıyıq ki, məsuliyyətsiz olmaqla, nəinki özümüzə, balalarımızın, sevdiklərimizin belə həyatına ciddi təhlükə yarada bilərik. Bu, bir acı reallıqdır.

Ancaq şər qüvvəli radikal müxalifətin "lideri" olan Əli Kərimli və "ələkçinin qıl vərəni" Cəmil Həsənli sosial şəbəkələrdən çağırışlar edərək xalqı mitinqə çıxmağa çağırır. Xüsusilə də bu günlərdə epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulmasına görə insanların sərtləşdirilmiş, yeni cərimələrin artırılmasından istifadə edərək ölkədə siyasi sabitliyi pozmağa çalışırlar. Ancaq anlamırlar ki,bu qərar yoluxmanın qarşısını almağa, insanların məsuliyyətli olmasına və ən əsası isə, insan itkisinin azalmasına nail olmaqdır. Müqayisə yo, faktlara əsaslanaraq tibbin inkişaf etdiyi ölkələr virusa yoluxmuş xəstələr arasında seçim aparmaq məcburiyyətində qalıb, xəstəxanalarda boş yer qalmayıb, yaşı çox olan xəstələr artıq qəbul edilmir, onlar ölümlə üz-üzə buraxılır. Bu, çox acınacaqlı bir vəziyyətdir və belə bir ağır durumun yaranmasına səbəb isə insanların bu virusa vaxtında ciddi yanaşmamasıdır.

Amma Azərbaycan dövləti ölkəmizdə bu cür vəziyyətin yaranmaması üçün bütün imkanlarını səfərbər edib, lakin bu tədbirlərin səmərəli olması üçün cəmiyyətimizin, insanlarımızın da üzərinə böyük məsuliyyət düşür. Bu gün dövlətin bütün potensialı koronavirus infeksiyası ilə mübarizəyə səfərbər olunub. Azərbaycan həkimi, polisi görünməmiş fədakarlıq göstərir. Amma bu azdır. Çünki görülən tədbirlər insanlarımızın qoyulan qaydalara ciddi riayət etməsi ilə müsbət nəticə verə bilər. Vətəndaşlarımız hər şeydən öncə özlərinin və yaxınlarının sağlamlığını düşünməlidir.

21-ci əsrin Şər qrupları isə xalqın, dövlətin əldə etdiyi uğurlara nəinki sevinmir, hətta düşmən münasibəti bəsləyərək bu nailiyyətin üstünə kölgə salmaq, onu qaralamaq üçün bütün gücünü səfərbər edir. Bununla yanaşı, Azərbaycanın şər-şabata düşmənləri ilə sıx iş birliyi quran şər qruplar ölkəmizin imicini, yüksələn nüfuzunu ləkələməyi sanki özlərinə borc bilirlər. Hələ bu da azmış kimi, şərə, şeytana, iblisə xidmət edən bu kimi idbarlıq nümayəndələri "hüquq müdafiəçisi" adı altında simasızlıqlarına maskalar taxmağı da unutmurlar. Onlardan biri də Sülh və Demokratiya İnstitutu maskası, həm də markası altında fəaliyyət göstərən şərbaz "hüquq müdafiəçisi" Leyla Yunus uzun müddət idi ki, yox olmuşdu, səsi çıxmırdı. Necə ki, "Milli Şura"nın növbəti video-qeybət tamaşası ortaya düşdü, səsi batanların "səsini çıxardı". Necə deyərlər, "gül" vurduqlarını zənn etdilər. Ancaq tryapka oldular, özüdə yararsız. Bir də guya ki, indiyədək yığışdıqları gapxanada bir ciddi mövzu müzakirəsi aparmışdı ki... Amma bu dəfə bir qədər fərqli. Yəni budəfəki "zoom buluşmaya radikal düşərgənin, daha doğrusu "Milli Şura"nın tryapkasının ABŞ-dan gözü yuxulu hamını salamlayaraq iqtidarın dialoq təklifinə müsbət cavab verən partiyalar və siyasətçiləri "tryapka" adlandırması da təəccüb doğurmadı. Qabında olanı dedi, daha doğrusu radikal müxalifətin hamısını şərə dəlalət verən tryapkalar saydı və heç ayaqqabı da silməyə lazım olmadığını dedi. Necə deyərlər, sözünü düzü bu idi. Hə, təsəvvür edirsinizmi? Vaxtıyla bir cəbhədə olduqlarına verdikləri qiymət idi, bu. Dəstədən qalma geri ifadəsinə qüvvət, bu dəfə Şər qüvvənin ortada qalanı Gültəkin Hacıbəyli "buğa söhbəti" eləməyə başladı. Məşədi İbad demişkən: "Heç hənanın yeridirmi?". Yeridir. Sən demə, nə vaxtsa Cəmil Həsənli buna - bizim 5 yaşımızda güldüyümüz - bir əhvalat danışıb. Guya sovet dövrünün hansısa məmuru rayonların birinə gedəndə öküzü, buğanı inəyin əri adlandırıb. Dodaq qaçırmayacaq qədər primitiv bir lətifəyə qəşş edib gülən Milli Şura "zoom konfransçılar" görəsən həmmin anda hansı səviyyədə olduqlarının fərqindəydilərmi? Məsələ, buğainək söhbətinin gülməli olub-olmadığından getmir. Söhbət özünü "ana müxalifət" elan etmiş bir siyasi qurumun müzakirə etdiyi mövzudur. Bir də buna da təəccüb etmək olmaz. Səviyyələri buraya qədərdi.

Belə səviiynin nümunəsi şərşabatalı Leyla Yunus "arıqlamış" pul kisəsini "kökəltmək" üçün başlayıb sosial şəbəkələrdən çağırışlar etməyə əəmsin". Ölkəyə gələrgəlməz isə özü kimi xəyanətkar, satqın şər mətbuatına çıxdı və bəyan etdi ki, bəzi məsələlərdən (?-H.R.) "narahat" və "narazıdır". Əslində, belə də olmalı idi...Məgər nə zaman belə olmayıb axı? Qrantlara hər şeylərini satan şər viruslardan soruşmaq istərdik ki, ay şərlər "xatunu" Leyla Yunus, nəyə görə sən bu ölkədə heç olmasa bir il davamlı şəkildə yaşamırsan və ayrı-ayrı zamanlarda səsin ümumiyyətlə gəlmir? İndi koronavirusun tüğyan ediyini görüb zənn etdiniz ki, "məqamdır, böhtan nə qədər imkan varsa bu hakimiyyəti şərlməyin məqamıdır. L.Yunus da deyib ki, "evdə qalmaq yox, evdən çıxıb mitinq meydanına yürümək" deməklə, satqın Qənimət Zahidin sözünə "qüvvət vərərək" deyib ki, bu hakimiyyəti şərləməklə bu hakimiyyətdən yaxa qurtara bilərik" iddiası ilə çağırışlar edir. Bu nə birinci, nə də sonuncu haldır. Satqın satqının, əxlaqsız əxlaqsızın yanında olar.

Leyla Yunus - satqın və abırsız məxluqun "həyat fəlsəfəsi"!

Cəmiyyət isə belə "həyat fəlsəfələrini" çoxdan görüb. Hətta, vaxtilə Leyla Yunusun yolunu gedən bəziləri şərə xidmət etdiklərini anlayaraq, ziyanlı yollarından geri dönüblər. Leyla Yunus isə qalıb ortada tək və bu təklik əslində ona sərf edir. Çünki daha Arzu Abdullayeva, Səidə Qocamanlı, Novella Cəfəroğlu və digərləri illər öncə atdıqları bu kimi addımlarını daha atmırlar. Çünki şər xeyirə qalib gəlmişdi. Amma Leyla Yunusun geriyə qayıtması mümkünsüzdür. Çünki bu zamanda hakimyyətin gördükləri işi daima şərləmək Leyla Yunusun qanına hopub. Erməni xislətli Şər virusunun qanında pislik, ölkədə çətin durumun olmasına həmişə sevinib. Ancaq bu gün 17 illik düşünülmüş addımlara Azərbaycanı idarə edən dövlət başçımızın bütün uğurlarını görür, inanır və dəstəkləyir. Bax, budur Xeyir qüvvənin uğurlu işləri.

"Biz, bu sınaqdan da çıxacağıq". Elə Cənab prezidentin də dediyi kimi, "əgər insanlar özlərini məsuliyyətli apararlarsa və özünütəcrid qaydalarına əməl edərlərsə, biz bu xəstəliyin geniş yayılmasının qarşısını ala bilərik".

Evdə qalaq... inanaq - biz bir yerdə güclüyük.

**RƏFİQƏ**

---



**Təhmasib Novruzov**

# Dövlət mənim, Dövlət sənin, Dövlət hər kəsin!

***Allah müqtədir şairimiz Məmməd Araza qəni-qəni rəhmət eləsin. Və ruhu məni bağışlasın ki, onun dillərdə əzbər olmuş məşhur ifadəsinə dəyişiklik etmişəm. Yəni Məmməd Arazın "Dünya mənim, dünya sənin, dünya heç kimin" kəlamına "əl gəzdirməyim"ə görə deyirəm bunu. Amma bəzi həmvətənlərimə dünyanın deyil, Dövlətimizin və dövlətçiliyimizin bizim həyatımızda nə demək olduğunu anlatmaq istəyi beynimə düşəndən, fikrimi ifadə etmək üçün bundan dəyərli kəlam tapa bilmədim. Yenə ağzıgöyçəklər deyəcəklər ki, bizə dərs verir. Amma vallah, billah, ətrafımızda baş verənləri görüb, izləyib, mənim mənimlə müzakirəmdən sonra, baxıb görürəm ki, biz hələ də dövlət və dövlətçilik anlayışlarının içindəki fəlsəfi yükü doğru-düzgün anlamaqda çətinlik çəkir, ya da anlasaq belə, fərqinə varmaq istəmirik.***

Təkcə Azərbaycan türkləri deyil, damarında türk qanı daşıyan hər kəsin Türkiyənin "Bozdağ" sinema studiyasının istehsalı olan "Diriliş Ərtoğrul" teleserialını izlədiyinə əminəm (Əslində bu serialı bütün dünya izlədi). Şəxsən mən bu serialın bütün bölümlərini təkrar-təkrar izləmiş və hər dəfə də dövlətçilik anlayışıma yeni bilgilər almışam. Çünki mövcud dövlətin problemləri, saray(İndiki zəmanəmizdə hakimiyyət, vəzifə) çəkişmələrinin incəliklərinə qədər təsviri insanda dövlətin əhəmuyyətini anlamaqda və dövlətçilik hissinin güclənməsində çox mühüm bilgilər verir. Həmin serialın 82-ci bölümündə Süleyman Şah oğlu Ərtoğrul belə bir cümlə işlədir: "Türkün gücündən qorxan düşmənlərimiz bizə qarşı hər zaman kəndi içimizdən xainlər tapıb qullanırlar"! Tarixi faktlar əsasında istehsal edilmiş serialı izləyənlər, başda Əmir Sadəddin Köpək və Bəypolad (Albastı) olmaqla bu xainlərin necə məhv edildiyinin şahidləridir. Oxucularım üçün maraqlı ola bilər ki, bu serialın bizim indiki dövrümüzlə və ya konkret Azərbaycanın indiki durumu ilə nə əlaqəsi? Dünya malı, vəzifə və mənsəb ehtirası güclü olan həmin xainlər, istəklərinə nail olmaq üçün hansı xəyanətlərə əl atmırlar? Hətta türkün o dövrdəki ən qatı düşməni olan tapanaqçılarla, moğollarla, Bizansla gizli əlaqələr qurub, öz mənafeləri naminə Səlçuqlu dövlətinin, türk obalarının mənafelərini düşmənin ayaqları altına sərirdilər. Qəribə və faciəvi faktdır ki, bu gün də Azərbaycanın dövlət və milli mənafelərini beləcə düşmənlərin ayaqları altına sərənlər var. Həm də, nə yazıqlar ki, beləlǝri təkcə hakimiyyətə can atan müxalif adlandırılan qüvvələr daxilində deyil, həm də hakimiyyət içərisində özlərinə yer ala biliblər.

Bu gün ölkə başçısının birbaşa rəhbərliyi altında aparılan inqilabi xarakterli saflaşma və yeni idarəetmə islahatları, təəssüf ki, bunu deməyə əsas verir. On illər boyu bu dövlətdə yüksək vəzifə tutub, özünün iyrənc əməllərinə görə haqlı olaraq kənara itələnən bəzi eks-məmurların bəzi anti-milli müxalif qüvvələrlə birləşərək anti-dövlət fəaliyyətləri, bir vətəndaş olaraq məni hədsiz sarsıdır. Doğudanmı bizdə pula, mala, dövlətə, meşşan həyata o qədər güclü ehtiras var ki, insanlar tutduqları mövqedə, ölkə başçısının dönə-dönə vurğuladığı kimi, xalqın xidmətçisi olmaq əvəzinə, xalqın və dövlətin damarlarındakı qanı sormağa üstünlük verirlər? Ölkədə son iki ildə aparılan inqilabi dəyişikliklər fonunda, hələ də "ağıllanmayan", hələ də meşşan həyatdan əl çəkmək istəməyən, belə həyat üçün də, xalq içində deyildiyi kimi, ağına-bozuna baxmadan çapmaq, talamaq istəyindən çəkilmək istəməyən bəzi üzqarası məmurların damarlarında axan hansı millətin qanıdır görəsən?

İslam tarixi ilə bağlı bir hədis var. Havanın qaranlıq vaxtında bir yaxın adamı Həzrət Əli ilə görüşmək istəyir. Həmin şəxs otağa daxil olanda Həzrət Əli durub yerini dəyişir və durarkən qarşısındakı şamı söndürür. Həmin şəxs niyə o şamı söndürdüyünü soruşanda, Həzrət Əli deyir: "O şam beytül-malın (Yəni dövlət xəzinəsinin)şamıdır. Sən isə yanıma dövlət işi üçün gəlməmisən. Mən beytül-malın şamını qeyri-dövlət işində istfadə etsəm, dövlət malına israfçılıq etmiş olaram!" Məncə ibrətamiz nümunədir. Dövlətin, dövlətçiliyin nə demək olduğunu anlamayıb, dövlət vəsaitini istədikləri kimi dağıdan məmurlar qarşılarına gələn sənədlərə imza atıb dövlətin xəzinəsini gərəksiz yerlərə və öz şəxsi maraqlarına xərcləyirlərsə, demək onun dövlət və dövlətçilik haqqında anlayışı sıfıra bərabərdir.

Həmçinin, hər kəs işləmədən, dövlət xəzinəsinə bir manat da olsun xeyir vermədən dövlətdən almaq haqqında düşünürsə və bunun üçün hər cür iyrənc üsullara əl atmaqdan belə çəkinmirsə, deməк onun da dövlətçilik anlayışı "yox"a bərabərdir. Hakimiyyətə müxalif olub, bütün fəaliyyətini dövlətin zəifləməsinə yönləndirən siyasi fiqurlardan isə danışmağa dəyməz. Onların bəziləri bunu bilməyərəkdən edirlərsə, bəziləri, yenə Süleyman Şah oğlu Ərtoğrul demiş, məhz içimizdən satın alınan, manqurtlaşdırılan kəslərdir ki, o barədə ölkə başçısının da yaxın günlərdə mesaj verməyə məcbur olması, gerçəkdən çox utancvericidir. Xülasə, mövzu o qədər geniş əhatəli bir mövzudur ki, bu barədə kitablar yazılsa da, fikir bitməz, tükənməz. Mənim konkret olaraq anladığım və cəmiyyətə demək istədiyim odur ki, kimsə dövləti özünün hesab etməməlidir. Və kimsə də dövləti kiminsə hesab etməməlidir.

Dövlət hər kəsindir. Prezidentdən tutmuş sadə peşə adamına qədər hər kəs də dövlətin qayğılarını öz qayğıları, dövlətin əmlakını öz əmlakı, dövlətin problemlərini öz problemi, dövlətin tərəqqisini öz tərəqqisi hesab etməlidi. Əksinə olarsa fərdlər varlana, öz imperiyalarını qura bilərlər. Ancaq arxasında dövlətin gücü olmayan heç bir imperiya əbədi qala bilməz. Bu həqiqəti anlayanda, dövlətin fəlsəfəsini də anlamış olarıq.

# Kilsə ermənilər üçün "kiçik Ermənistan" anlamı daşıyır

***Kilsə - ermənilər üçün "kiçik Ermənistan" anlamı daşıyır. Onlar yerlərini bərkitmək üçün əvvəllər kilsə qurmağa və orada dini ayinlərdən əlavə millətçilik ruhunda təbliğat aparmağa da başlayırlar. Belə ki, digər kilsələrə iddia irəli sürərək öz "Kiçik Ermənistanlarının" sayını çoxaldır və bu yolda yorulmadan səylə çalışırlar. Belə ki, Gürcüstanda erməni katolik kilsəsi, erməni dini qurumları rəsmi olaraq 465 gürcü məbədinə iddia qaldırıblar.***

Ermənilərin gürcü müqəddəs məbədlərinə iddiasının əsasında, guya Gürcüstan ərazisində 650 erməni kilsəsinin olduğunu elmi tədqiqatları ilə araşdıran, erməni tarixini saxtalaşdıran Samvel Karapetyan durur. Ən maraqlısı da odur ki Samvel Karapetyan heç bir əsası olmadan tamamilə yalan məlumatla Vardziya kilsəsini "Vardzunik" adlandıraraq "erməni" abidələri sırasına aid edir. Bu məbədləri ələ keçirmək üçün müxtəlif vasitələrə əl atırlar. Buna misal olaraq, Gürcüstanın cənubunda yerləşən məşhur Vardziya kilsə kompleksində Müqəddəs Məryəm ananın vəfatı ildönümü mərasimində törədilən yanğını göstərmək olar. Bu zaman liberal kütləvi informasiya vasitələri gürcü pravoslav kilsəsini "yanğın təhlükəsizliyi qaydalarına" əməl etmədiklərinə görə günahlandırmışdılar.Yanğın şam masasının üstünə kiminsə yanan şam qoyma-sından başlıyıb. Bu yanğın nəticəsində kilsə divarlarında onun gürcü mənşəli olduğunu sübut edən unikal freskalar yanğın tullantıları ilə (karbon monoksitlə) örtülərək ziyan görmüşdü. Buradan belə nəticə çıxarmaq olur ki, kimsə bunu bilərəkdən etmişdi. Maraqlısı da odur ki bu yanğında məhz kilsənin gürcü mənşəli olduğunu sübut edən təsvirlər yanmışdır. Buradan belə qənaətə gəlmək olur: bunu xüsusi məqsədlə təşkil ediblər ki, kilsənin gürcü mənşəli olduğunu sübut edən ən bariz nümunələri yox etsinlər.

Pərvanə gölü və onun ətrafı bütün Gürcüstan üçün eləcə də hər bir pravoslav gürcü üçün müqəddəs bir yerdir. Öz əhəmiyyətinə görə, bu ölkənin qədim paytaxtı Msxetadır. Çünki Müqəddəs Nino məhz Pərvanə gölünün sahillərindən başlayaraq öz yolunu Gürcüstan ərazisinə salmışdır. Gürcülərin xristianlaşması da o vaxtdan etibarən başlamışdır. Ona görə də bu marşrut üzrə 40 günlük bir ziyarət ənənəsi vardır. Hətta Gürcüstanın prezidenti Salome Zurabaşvili də bu yolu zəvvarlarla birlikdə keçmişdir. Tarixən Pərvanə gölü ətrafında heç bir erməni yaşamamışdır. Ermənilərin "Pərvanə gölü" haqqındakı əfsanələri isə uydurulmuş yalanlardan başqa bir şey deyildir. Erməni köçkünləri burada yalnız 1830-cu ildə peyda olmuş və qədim gürcü kilsələrini mənimsəməyə başlamışlar. Sovet hakimiyyətinin qurulması ilə bu kilsələr tərk edilmiş və ya təsərrüfat obyektlərinə çevrilmişdir. O cümlədən kilsənin olduğu Poka kəndində də ermənilər mal-qara saxlamışlar. Ermənilər prinsipial olaraq gürcülərin ən yaxşı şəkildə qorunan kilsələrini geri qaytarmırlar. Bu gün müqəddəs kilsə ermənilər tərəfindən tövləyə çevrilmişdir. Belə ki, onlar kilsədən ot və ya mal-qaranın saxlanıldığı tövlə kimi istifadə edirlər. Bu barədə "Nəyə görə Cavaxetinin erməni kilsəsi tövlədir?" adlı yazıda qeyd olunur. Digər bir tərəfdən Karanfilyanın "Cavaxkın xəzinələri - Pərvanə gölü" adlı yeni filmində "qədim erməni əyaləti"nin tarixi və müasir vəziyyəti haqqında danışılır. Beləliklə də, müəllif filmdə Poka kəndindəki faktı qeydə alır. Filmdən də göründüyü kimi yerli ermənilər kilsədən tövlə kimi istifadə edirlər. Müəllif isə bu barədə belə qeyd edir: "Kilsədən tövlə kimi istifadə edilməsi heç də müqəddəslərə xəyanət demək deyildir, əksinə onun xilas olunmasıdır. Çünki Sovet İttifaqının süqutundan sonra Gürcüstan hökuməti dini tikililərin gürcüləşdirilməsi kursunu aparır və erməni məbədlərinin gürcülərə aid olduğunu elan edirdi. Kilsəni hansısa şəkildə məşğul etmək onun xilas olunması üçün yeganə şans idi. İndi kilsə təmir olunur, onun bəzəkləri isə orjinal şəkildə qalmasına imkan verir". Bundan əlavə qeyd etmək lazımdır ki, filmdə Samtsxe-Cavaxetiyanın guya "erməni torpağı" və "Böyük Ermənistan"ın Quqark əyalətinin bir hissəsi olduğunu" vurğulayan yalnış fikirlər də səslənir. Əslində isə Samtsxe-Cavaxetinin və xüsusən də Pərvanə gölünün bütün Gürcüstan üçün nə qədər böyük mənəvi əhəmiyyətə malik olması hamıya məlumdur. Ermənilər gürcülərə məxsus olan kilsəni verməmək üçün əllərindən gələni edirlər. Bu barədə gürcü blogeri David Vartumaşvili də yazır: "Erməni kəndində kişilər və qadınlar üçün iki gürcü monastrı var, hər ikisinə Müqəddəs Nino adını vermişlər. Kişilərə məxsus olan monastr kənddən bir qədər kənardadır, müasir görünüşə malik olduğu üçün turist üçün o qədər də marağı yoxdur. Qadınlar üçün olan monastr isə hamıya məlumdur. Bu monastr yüksəklikdəki təpənin ortasında yerləşir və mühüm tarixə malikdir. Belə ki Gürcüstanın katalikos-patriarxı II İlya hələ 1988-ci ildə kilsənin yanındakı bir kənddə köhnə bir ev əldə etmiş və onu öz adına qeydiyyatdan keçirmişdi ki sərhəd zonası olan və sərbəst giriş üçün icazə verilməyən bu əraziləri ziyarət edə bilsin. 1992-ci ildə baş rahibə Yelizaveta iki monarx ilə birlikdə monastrın təməlini qoymaq üçün Pokaya gələndə patriarxın evi erməni ailəsi tərəfindən zəbt olunmuşdu. İlk illərdə patriarx və monarxlar məkanı pərdə ilə bölərək bu insanlarla qonşuluq etməyə başladılar. Bu yaşamaq üçün mübarizə illəri idi. Dirçəliş isə yalnız 2001-ci ildə başlanıldı". O vaxt Gürcüstan ərazisində erməni təcavüzkarları Abxaziyada gürcüləri öldürür və doğma evlərindən qovurdular. Monastrın əsasını qoyan Gürcüstanın patriarxı və monarxlar qanuni olaraq əldə etdikləri evlərdən istifadə edə bilmirdilər. Yerli ermənilər özbaşına olaraq onlara aid olmayan evləri zəbt etmişdilər və gürcü rahibləri-ni tam 9 il ərzində bu evlərdən çıxartmağa çalışırdılar. Gürcülərin öz yurdlarındakı evlərində yaşamağa haqqları yoxdur. Çünki bu, ermənilərin "xoşuna gəlmir" və onlar özgə evində yaşamaq istəyirlər. Eyni zamanda Abxaziyadakı digər erməni terrorçuları gürcü qonşularını öldürərək, eləcə də evlərindən qovaraq onların evlərini qənimət kimi ələ keçirmişlər. Həqiqətdə monastrın yerləşdiyi müqəddəs Nino kilsəsi, XI əsr Gürcüstan memarlığının abidəsidir.. Gürcü keşişlərinin, rahiblərinin və zəvvarlarının ibadət etmələri üçün heç yerdə yerlərinin olmadığını bilərək ermənilər bir az yaxşı vəziyyətdə olan və damı olan gürcü kilsəsini tövlə kimi istifadə etmişlər. Yaxşı, bir halda ki siz yad kilsəsini ələ keçirdiniz, axı özünüz də orada dua edirsiniz. Nəyə görə müqəddəs yeri təhqir edərək onu mal-qara üçün tövlə etmisiniz? Amma yox. Yerli ermənilərə kilsə Allahın məbədi kimi lazım deyilmiş. Onu sırf qanuni sahiblərinə - gürcülərə verməmək üçün tövləyə çevirmişlər. "Erməni xalqının dostluğu və qardaşlığı" məhz bu cürdür. Qeyd etmək lazımdır ki bu təkcə işğal olunmuş Abxaziyada deyil, bütün ölkə üçün müqəddəs olan yerdə, Gürcüstanın mənəvi qəlbində eləcə də xristianlığın yayılmağa başladığı yerdə baş verir. Kənddə məskunlaşan ermənilərinin gürcü müqəddəslərini təhqir etməsi dərhal dayandırılmalıdır. Poka kəndində onlar tərəfindən tövləyə çevrilən qədim kilsə gürcü pravoslav kilsəsinə verilməlidir və burada ibadət yenidən bərpa olunmalıdır. Erməni mətbuatının David Qareci monastrına dair süni surətdə qəzəblənmələri ilə yanaşı, eyni zamanda gürcü ibadətgahlarının ermənilər tərəfindən dağıdılması prosesi də davam etməkdədir. Gürcüstan ictimaiyyətinin diqqətinin David Qareci məsələsinə yönəldiyi bir zamanda erməni millətçiləri Axalkələk bələdiyyəsinin Korxi kəndindəki qədim gürcü kilsəsini qəsdən məhv etmişlər.

Axalkələk bələdiyyəsinin Korxi kəndindəki Müqəddəs Stepan kilsəsinin məhv edilməsi faktını Gürcüstanın Mədəni İrsinin Qorunması üzrə Milli Agentliyi qeyd edir. Sözügedən agentlik kilsədə aparılan işləri vandalizm kimi xarakterizə edərək bu barədə rəsmi feysbuk səhifələrində məlumat verirlər. Mədəni İrsin Qorunması üzrə Milli Agentliyin əməkdaşları, işlərin icazəsiz olaraq həyata keçirildiyini öyrənmişlər. Gürcüstanın "Mədəni İrsin Öyrənilməsi haqqında" qanununun 30-cu maddəsi əsasında vətəndaş cəmiyyəti Yurik Tsarukyana gördüyü işləri düzəltmək və mövcud qanunvericiliyə uyğun olaraq aşağıdakı tələbləri yerinə yetirmək barədə yazılı xəbərdarlıq göndərmişdir:

? O abidənin bütün növ işlərini dərhal dayandırmalı idi (təməl işləri istisna olmaqla).

? Mütəxəssislərin nəzarəti altında kilsənin təməli dəmir-betonla möhkəmləndirilməli idi. Proses hesabat üçün videoya çəkilməli idi.

? Bir ay müddətində qalan işlərin görülməsi üçün Mədəni İrsin Qorunması üzrə Milli Agentlikdən icazə almalı idi.

Agentliyin yazdığına görə, Yurik Tsarukyan tikintiyə görə razılığın alınmasına dair tələbləri yerinə yetirməkdən imtina etdi. Agentlik,Gürcüstanın İnzibati Xətalar Məcəlləsinin 88-ci maddəsinin 1-ci bəndinə uyğun olaraq, hesabat hazırlayaraq Yurik Tsarukyanı 5,000 lari həcmində cərimə etdi.

Ancaq buna baxmayaraq Gürcüstan məbədinin dağıdılması davam etdi. Agentliyin yazdığına həmçinin qeyri-rəsmi məlumatlarına görə, xəbərdarlıq və cərimələrə baxmayaraq, kilsədəki işlər icazəsiz davam edir. Bunun artıq cinayət məsuliyyətinin olması erməni vandallarını dayandırmır. Agentliyin işçiləri isə hüquq qaydalarının pozulması faktını araşdırmağa davam edəcəklər.

Qeyd etmək lazımdır ki Gürcüstandakı Erməni Apostol Kilsəsinin Tiflisdəki erməni millətçiləri, Korxi kəndindəki kilsəni rəsmi olaraq iddia etdikləri 442 Gürcüstan kilsəsinin siyahısına daxil etmiş və ermənilərə aid olduğunu iddia etmişlər.

Bu kilsə Axalkələk bələdiyyəsinin kilsələri arasında sayca 33-cüdür. 1830-cu illərdəki Korxi və Surb Stepanos (Surb Qriqor Lusavoriç ) 1884-1890-cı illərdə bərpa olunmuşdur - bu məlumat rəsmi Ermənistanın iddiasına əsaslanır. Lakin bu məlumat tamamilə yalandır. Çünki Korxi kilsəsi orta əsrlərdə tikilmiş bir gürcü kilsəsidir ki o zamanda da Samtsxe-Cavaxetiyada heç bir erməni yox idi.

1830-cu ildə kilsə ermənilər tərəfindən tutulmuşdur. 1884-1890-cu illərdə ermənilər tərəfindən ələ keçirilən gürcü kilsələrində təmir işləri aparılmış, kilsələrin gürcülərə mənsub olduğunu isbat edən dəlillər məhv edilmiş, yerinə isə erməni yazısı olan saxta daşlar qoyulmuşdur.

Buna baxmayaraq, Gürcüstanın Mədəni İrsinin Qorunması üzrə Milli Agentliyinin mütəxəssisləri kilsəni araşdırmağa başladıqları zaman dərhal Korxi kəndindəki kilsənin gürcülərə aid olduğunu təsbit etmişlər. Ermənilər isə onu erməni adlandıraraq yerinə guya ermənilərə aid olduğunu sübut edən saxta daşlar qoymuşlar. Bu isə XIX əsrin sonunda, ermənilər tərəfindən Gürcüstan kilsələrinin kütləvi şəkildə mənimsənilməsi dövründə baş vermişdir. Kilsənin təməlinin və divarlarının gürcülərə mənsub olmasını istənilən mütəxəssis sübut edə bilər. Bundan əlavə, 1890-cı ildəki təmiri dövründə vəhşicəsinə dağıdılmış məbəd kompleksinin məzar daşlarını ermənilər mənimsəmişlər.

**Vahid Ömərov,**
**f.ü.f.d.,dos.**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Səs

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

7 iyul



# "Barselona" prezidentindən Messi açıqlaması





"Barselona"nın prezidenti Xosep Bartomeu kapitan Lionel Messinin komandadan ayrılacağı haqda yayılan xəbərlərə münasibət bildirib. "Barselona" rəhbəri "goal.com"a açıqlamasında bu barədə argentinalı oyunçu ilə danışdığını açıqlayıb:

"Onunla söhbət etdik. Təfərrüatlara girməyəcəyəm, ancaq Lionel bir neçə dəfə karyerasını "Barselona"da bitirəcəyini söylədi. Klubun inkişafına yönəlmişik, bir çox oyunçu ilə danışıq aparırıq. Messi davam etmək istəyir və sona qədər burada qalmağı planlaşdırır. Qarşıda illər çoxdur və biz ondan çoxlarının gözlədiklərindən daha uzun müddət zövq alacağıq".

Qeyd edək ki, İspaniya mətbuatının yazdığına görə, Messi Bartomeu ilə münaqişədədir və özünün yox, klub rəhbərinin "Barselona"nı tərk etməsini istəyir. Messi bu mövsüm La Liqada 29 matçda 22 qol vurub, 20 məhsuldar ötürmə edib. Onun klubu ilə müqaviləsi 2021-ci ilin iyununa qədərdir.

# Evdən pul və mobil telefon oğurlayan şəxs yaxalanıb



Paytaxtın Binəqədi və Suraxanı rayonlarında oğurluqla məşğul olan şəxslər tutulublar. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Binəqədi rayonunun Biləcəri qəsəbəsindəki qəbiristanlıqdan məzarların ətrafına çəkilmiş dəmir barmaqlıqları oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini Ə.Məhərrəmov və Abşeron rayon sakini F.Bayramov rayon polis idarəsinin 6-cı polis bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində yaxalanıblar.

İyunun 15-də Suraxanı rayonu ərazisindəki evlərin birindən pul və mobil telefon oğurlamaqda şübhəli bilinən qrupun digər üzvü - Bakı şəhər sakini O.Süleymanlı rayon polis idarəsinin 32-ci polis bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıb. Hər iki faktla bağlı araşdırma aparılır.

# İbn Sinadan qızıla bərabər məsləhətlər...

***Müasir təbabətin banisi adlandırılan məşhur loğman Əbu Əli ibn Sina 270-dən çox əsərin müəllifidir. Onun bir sıra məsləhətləri əsrlər keçəndən sonra da öz aktuallığını saxlayır. "Fikriyat.com" saytına istinadla bu məsləhətlərdən bəzilərini təqdim edirik:***

1.Yay vaxtı turşməzə yeməklər, məsələn, tam yetişməmiş üzüm yeyin. Nar şirəsi, tam yetişməmiş üzüm şirəsi için, hind xurması yeyin.

2.Kökəldilmiş heyvanların ətini yeməkdən çəkinin, çünki bu, öd şirəsi ifrazını artırır. Payızda qarpız və üzüm yeyin, çünki belə yeməyin heç bir ziyanı yoxdur.



3.Müalicəvi prosedurların ən xeyirlisi hamamdır. Acqarına hamamda yuyunmaq insanı zəiflədir.

4.Kükürdlü su ağrıları azaldır, sinirləri möhkəmlədir, çiban və yaraları sağaldır, dəridəki ləkələri ağardır, mədəni zəiflədir, cinsi həvəsi azaldır.

5.Təzyiqiniz yüksək olduqda balqabaq şirəsi için. Ürəyi möhkəmlətmək üçün alma yeyin. İflic vurmuş insan sidr qozası yeməlidir. Sinə nahiyənizdə ağrılar varsa, badam yeyin, üstündən bal şərbəti için.

6.Payızda duzlu və quru yeməklərdən tam imtina edin. Belə yeməklər insanlarda müxtəlif xəstəliklərə fəsad verir. Duzlu pendir, duzlu balıq, ümumiyyətlə, bütün duzlu yeməklər zərərlidir.

7.Tərkibində dəmir olan su iştahanı artırır, dalaq xəstəliklərindən əziyyət çəkənlərə yaxşı təsir göstərir, cinsi həvəsi artırır, mədədə ağırlığı aradan götürür.

8.Dadlı və isti xörəklər öd ifrazını artırır. Buna səbəb onların çox isti olmasıdır. Belə yeməklərin faydalı cəhəti isə mədə-bağırsaq traktının işini fəallaşdırmasıdır.

9.Ürəkdöyünmə zamanı keşniş toxumu yeyin. Onurğanızda ağrı hiss edəndə cücə bulyonu için.

10.Müalicəsi olmayan xəstəlik yoxdur. Yalnız iradəsiz insanlar var. Faydasız bitki yoxdur, sadəcə onun faydalı cəhətləri hələ öyrənilməyib.

# UEFA Çempionlar Liqası barədə qərar verdi

Futbol üzrə UEFA Çempionlar Liqasında 1/8 final mərhələsinin cavab oyunları neytral meydanda keçirilməyəcək. İspaniyanın nüfuzlu "AS" nəşrinin yazdığına görə , UEFA ev sahibi komandaların rəqiblərini doğma meydanda qəbul etməsinə razılıq verib. Bu barədə iyulun 10-da rəsmi açıqlama veriləcəyi gözlənilir.

Qeyd edək ki, UEFA daha əvvəl koronavirus pandemiyasına görə Çempionlar Liqasının oyunlarının 1/4 final mərhələsindən "8-lər finalı" formatında Portuqaliyanın paytaxtı Lissabonda keçirilməsinə qərar verib. Xatırladaq ki, 1/8 finalın cavab matçında "Mançester Siti" "Real"ı (ilk oyun -2:1), "Yuventus" "Lion"u (ilk oyun - 0:1), "Barselona" "Napoli"ni (ilk oyun 1:1), "Bavariya" isə "Çelsi"ni (ilk oyun - 3:0) qəbul edəcək.



# İranda bir gündə 160 nəfər koronavirusdan öldü

İranda koronavirus epidemiyası tüğyan edərək can almaqda davam edir. Son 24 saat ərzində İranda 2613 nəfərin virusa yoluxması aşkar edilib, 160 nəfər həyatını itirib. İranın Səhiyyə Nazirliyinin yaydığı məlumatda deyilir ki, bununla da ümumilikdə yoluxanların sayı 243 min 51 nəfər, ölənlərin sayı isə 11 min 731-ə çatıb.

Xüsusi xəstəxanalarda müalicə alaraq sağalan 204 min 83 nəfər evə buraxılıb. Müalicəsi davam edən 3201 xəstənin vəziyyəti ağır olaraq qalır.

Nazirliyin açıqlamasında qeyd olunur ki, Xuzistan, Kürdüstan, Hörmüzgan, Şərqi və Qərbi Azərbaycan, Elam, Xorasan, Kirmanşah və Buşəhr vilayətlərində vəziyyət daha ağırdır.

İranın koronavirusa qarşı mübarizə mərkəzinin nümayəndəsi doktor Məsud Mərdani bildirib ki, 18 milyon insan virusa yoluxub ki, bu da əhalinin 20 faizi deməkdir. İranın Sənaye Nazirliyi isə tibbi maska ixracını qadağan edib.




**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600